# Azərbaycan Rəssamları haqqında qısa məlumat kitabçası

Bakı-2017

# Mündəricat

## Rəngkarlıq


Salam Salamzadə……………………..…....7
Səttar Bəhlulzadə………………………..... 9
Hüseyn Əliyev……………………………. 11
Baba Əliyev……………………………....13
Əyyub Hüseynov……………………….. 15
Tağı Tağıyev…………………………… 17
Ağa Mehdiyev………………………….... 19
Böyükağa Mirzəzadə…………………… 22
Mikayıl Abdullayev……………………… 24
Oqtay Sadıqzadə……………………….... 26
Cavad Mircavadov……………………… 28
Mahmud Tağıyev…………………………30
Vəcihə Səmədova………………………..32
Nadir Əbdürrəhmanov……………….…..35
Əşrəf Muradoğlu…………………….……37
Xalidə Səfərova……………………….….39
Davud Kazımov……………………….….41
Elbəy Rzaquliyev………………………...44
Cahangir Rüstəmov……………………....45
Rasim Babayev…………………………..47
Tahir Salahov…………………………….49
Tələt Şıxəliyev…………………………….51
Toğrul Nərimanbəyov……………….…..…53
Oqtay Şıxəliyev…………………….……...56


## Qrafika


Elmira Şahtaxtinskaya…………………..59
Qəzənfər Xalıqov…………………………61
Ələkbər Rzaquliyev………………………63
Bədurə Əfqanlı……………………………65
Kazım Kazımzadə………………………..68
Maral Rəhmanzadə……………………...70
Nəcəfqulu İsmayılov……………………..72

Cəmil Müfidzadə……………………....74

## Heykəltəraşlıq

Həyat Abdullayeva…………………..76
Cəlal Qaryağdı……………………….78
Fuad Əbdürrəhmanov……………….80
Mirəli Mirqasımov……………………83
Ömər Eldarov…………………………85
Tokay Məmmədov……………………88
Münəvvər Rzayeva…………………..92
Elmira Hüseynova……………………94
Fazil Nəcəfov…………………………96
Arif Qazıyev…………………………..98

## D.T.S.

Sabir Şıxlı……………………………100
Sima Ağayeva………………………102
Ədhəm Yusubov……………………103
Aydın Rəcəbov………………………105
Adil Şıxəliyev………………………...107
Şamo Abbasov………………………109

## Azərbaycan Dövlət Rəsm Qalereyası haqqında Məlumat

Azərbaycan Dövlət Rəsm Qalereyası 1960-cı ildən fəaliyyət göstərən Azərbaycan Dövlət Sərgi Salonunun bazasında 1972-ci ildə Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yaradılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin vəsaiti hesabına son illərdə fonda yüksək bədii keyfiyyətə malik müasir təsviri və dekorativ sənət nümunələri toplanmışdır.

Qalereya tərəfindən mütəmadi olaraq müxtəlif müəssisə və təşkilatlarda, regionlarda fəaliyyət göstərən dövlət rəsm qalereyalarında sərgilər təşkil olunur.

Regionlarda təsviri sənətə marağı artırmaq və yeni istedadları aşkar etmək məqsədilə rəssamların yaradıcılıq emalatxanaları, ustad dərsləri və gənc rəssamların səyyar sərgiləri təşkil edilir. Qalereyanın elmi işçiləri tərəfindən sərgilərin, müsabiqələrin tədqiqatı, rəsm əsərlərinin elmi araşdırılmaları və rəssamlar barədə məlumatların toplanması işi həyata keçirilir.

Qalereyanın fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

Qalereya aidiyyatı sahədə vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edir;

Təsviri və dekorativ-tətbiqi sənət sahəsinin mövcud vəziyyəti və perspektivləri haqqında analitik materiallar hazırlayır, onların inkişafına dair tövsiyyələri işləyib Nazirliyə təqdim edir;

Qalereya Azərbaycanın mədəni irsinin qorunub saxlanılması və yenidən bərpasında milli incəsənətin zəngin ənənələrinə əsaslanan mədəni-estetik formaların axtarışı və formalaşdırılmasını həyata keçirir.

Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda keçirilən sərgilərin böyük əksəriyyəti əsasən Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda saxlanılan əsərlərdən təşkil olunur.

Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda Azərbaycan rəssamlarının yaratdıqları 10000-dən artıq nadir sənət inciləri olan rəngkarlıq, qrafika, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət əsərləri və müasir incəsənət əsərləri qorunub saxlanılır.

Bu gündə Azərbaycan Dövlət Rəsm Qalereyası ölkədə milli təsviri sənətimizin ən nadir incilərinin qorunub saxlandığı zəngin kolleksiyaya malik olan mədəniyyət müəssisəsi olmaqla bərabər, əsərləri bu qalereyada olan rəssamların yaradıcılığını təbliğ edən,

həmin rəssamların tanıdılmasını qarşısına məqsəd qoyan mədəniyyət ocağına çevrilməkdədir.

Qalereyanın elmi işçiləri tərəfindən müxtəlif layihələr çərçivəsində ayrı-ayrı rəssamların həyat və yaradıcılıq bioqrafıyası da araşdırılaraq qələmə verilir.

Azərbaycan Dövlət Rəsm Qalereyasının əsas işlərindən biri ilk dəfə olaraq rəssamların Vahid İnformasiya bazasının elektron formada yaradılması olmuşdur (infosourceazgallery.az).

Bu kitabça əsasən İKT-dən istifadəyə üstünlük verməyən tamaşıçılarımız üçün nəzərdə tutulmuşdur.

Bu ilk təcrübə və ilk kitabçadır. Gələcəkdə bu silsilədən olan digər kitabçalar da hazırlanacaqdır.



## Salam Salamzadə

Azərbaycanın xalq rəssamı, əməkdar incəsənət xadimi Salamzadə Salam Əbdülqasım oğlu 7 mart 1908-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1929-cu ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir.

Yaradıcılığının erkən dövründə əsasən tematik tablolar çəkmişdir. Onun “Sap sexi” (1930), “MTS-in açılışı” (1932) “Gəncə toxuculuq fabrikində”, “Komsomolçular iş vaxtı” (1930) əsərləri bu qəbildəndir.

Salam Salamzadə Azərbaycan təbiəti və məişət səhnələri təsvir olunan tabloların, portret və mənzərələrin müəllifidir. Rəssamın “Günəş altında” (1958) “N.Nərimanovun portreti” (1958), “Sovxoz çölləri” (1959), “Suya gedən qadınlar” (1968), “Çay plantasiyası” (1970), “Rezervuarlar” (1976), “Lənkəran çaybecərənləri” (1977), “Toya gedənlər” (1974-1982), “S.A.Orucovun portreti” (1979-1982) adlı rəngkarlıq əsərləri diqqət çəkir.

Salam Salamzadə dəfələrlə Yaxın və Orta Şərq ölkələrində səfərdə olmuş, bu ölkələrin həyatını və

təbiətini təsvir edən tablolar yaratmışdır. “Ərəb ölkələrində” silsiləsi (1961-1970) buna misaldır.

Dünyanın bir sıra şəhərlərində fərdi sərgiləri təşkil olunmuşdur. Əsərləri R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında və s. muzeylərdə saxlanılır. “Şərəf nişanı” ordeni və medallarla təltif edilmişdir.

O, Azərbaycan Respublikasının “Əməkdar İncəsənət Xadimi” (1940), “Azərbaycan SSRİ Xalq rəssamı” (1982) fəxri adlarına layiq görülmüşdür.

Salam Salamzadə 1997-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Salam Salamzadənin 72 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Səttar Bəhlulzadə



Bəhlulzadə Səttar Bəhlul oğlu 15 dekabr 1909-cu ildə Bakının Əmircan kəndində anadan olmuşdur. 1927-1931-ci illərdə Azərbaycan Rəssamlıq Məktəbində oxumuşdur. Ə. Əzimzadənin rəhbərliyi ilə “Kommunist” qəzetində yaradıcılığa başlamışdır. 1931-1933-cü illərdə qəzetdə onun müasir məzmunlu ilk karikaturaları çap olunmuşdur. 1933-1940-cı illərdə Səttar Bəhlulzadə Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuşdur. Məşhur rəssamlar V.A.Favorski və Q.M.Şaqalın rəhbərliyi altında rəssamlıq sənətini, o cümlədən də boyakarlığı öyrənmişdir.

Moskvadan qayıtdıqdan sonra S.Bəhlulzadənin yaradıcılığında tarixi mövzular və tarixi şəxsiyyətlərin təsviri ("Babək üsyanı", "Fətəli xan", "Xəttat Mir Əli" və s.) əsas yer tutmuşdur.

Azərbaycanın müxtəlif rayonlarını qarış-qarış gəzən rəssam bir çox təbiət mənzərələri yaratmışdır. “Doğma düzənliklər”, “Gölməçələrdə ördəklər” mənzərələrində Lənkəranın təbiətini əks etdirən rəssam, “Cıdır düzü”, “Dumanlı dağlar”, “Yaşıl xalça” lövhələrində Qarabağın səfalı yerlərini kətan üzərində

canlandırmışdır. Abşeronun təbiətinə həsr etdiyi “Neft daşları” mənzərə silsiləsi onun yaradıcılığında xüsusi yer tutur. “Xəzər üzərində axşam” mənzərəsi rəssamın şöhrət qazanmış əsərlərindəndir. Hal-hazırda Səttar Bəhlulzadənin əsərləri R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində və Azərbaycan Dövlət Rəsm Qalereyasında, eləcə də Moskvada, xarici ölkə muzeylərində və çox böyük hissəsi şəxsi kolleksiyalarda saxlanılır. Səttar Bəhlulzadə görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri sayılır.

Mənzərə janrında intim-lirik, natürmortlarında incə xalça ornamentlərinin düzülüşünü əks etdirən ənənəvi xalq yaradıcılığının motivləri hiss edilir.

Rəssam Azərbaycanın “Əməkdar İncəsənət Xadimi” (1960), “Azərbaycan Xalq rəssamı” (1960), “Azərbaycan SSRİ Dövlət Mükafatı laureatı” (1972) olmuşdur. 2009-cu ildə Səttar Bəhlulzadənin 100 illik yubileyi UNESCO səviyyəsində bütün qeyd olunmuşdur.

Səttar Bəhlulzadə 14 oktyabr 1974-cü ildə Moskvada vəfat etmiş, Əmircana gətirilərək doğma kəndində dəfn olunmuşdur.

Hal-hazırda Səttar Bəhlulzadənin 18 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Hüseyn Əliyev

Hüseyn Əlirza oğlu Əliyev 1911-ci il aprel ayının 22-də Zəngəzurun Comərdli kəndində anadan olmuşdur. Rəssam, 1927-1932-ci illərdə Bakı Rəssamlıq Texnikumunda, daha sonra isə 1932-1935-ci illərdə Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır.

1935-ci il oktyabr ayının 4-dən təqaüdə çıxanadək «Xalq qəzeti»nin («Kommunist») bədii tərtibat şöbəsində əvvəlcə baş rəssam, sonra da bədii tərtibat şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Hüseyn Əliyev müxtəlif janr və üslublarda, əsasən romantik mənzərələr yaratmışdır. Hüseyn Əliyevin mənzərələrini formal olaraq iki yerə, konseptual və situativ mənzərələrə bölmək olar. Rəssamın monotipiya texnikası ilə yaratdığı konseptual mənzərə tablolarında bir neçə obrazlı, stilistik xətt diqqət çəkir.

Hüseyn Əliyevin "Göygöl mənzərələri" adlı albomunda rəssamın 17 mənzərə rəsmi verilmişdir.

Müxtəlif sərgilərdə nümayiş etdirilən rəsmlər sırasında, onun Comərdli kəndində çəkdiyi "Yəhər

Təpə" və "Mahmud bulağı" əsərləri özünəməxsus yer tutur.

Hüseyn Əliyevə 1977-ci ildə Azərbaycan Respublikasının "Əməkdar rəssam", 1982-ci ildə "Xalq rəssamı" adı verilmişdir.

Hüseyn Əliyev 21 may 1991-ci ildə vəfat etmişdir.

Hal- hazırda Hüseyn Əliyevin 5 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Baba Əliyev



Əliyev Baba Balababa oğlu 22 mart 1915-ci ildə Bakının Zirə qəsəbəsində anadan olmuşdur.

1937-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmiş, 1940-1941-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsil almışdır.

Onun yaradıcılığında əsas yeri portret və natürmort janrları təşkil edir. Baba Əliyevin sənətə gəlişi Böyük Vətən Müharibəsi illərində onun yaradıcılığında cəbhədə igidlik və mərdlik nümunəsi göstərən döyüşçülərin bədii obrazları xüsusi yer tutur. Baba Əliyevin “təyyarəçi Məzahir Abbasovun qəhrəmanlığı” (1947) adlı əsəri müharibənin qəhrəmanlıq tarixindəndir.

Müharibədən sonrakı illərdə Baba Əliyev digər rəssamlar kimi sadə zəhmət adamlarının bədii ümumiləşdirilmiş obrazlarının təsvirinə başlamışdır. 1951-ci ildə o Əbdülxalıq və A.Zarubinlə birlikdə pambıqçıların əməyinə həsr olunmuş, “Dövlətə pambıq təhvili” adlı böyük pannosunu işləmişdir. Əsər 1951-ci ildə Ümumittifaq sərgisində nümayiş etdirilmişdir.

Rəssamın “Fasilə” (1957), “Mədəndə” (1960), “Növbə qabağı” (1959), “Yeni növbə” (1963) tablolarında rəssam yaradıcı əməyin qüdrətini göstərməyə çalışmışdır.

1960-cı illərdə Baba Əliyev sərt üsluba üstünlük verir. Onun bu qəbildən olan “Neftçilərin istirahəti” (1961) və “Tankçıların istirahəti” (1965) adlı əsərləri də xüsusi diqqət çəkir.

1964-cü ildə Azərbaycanın “Əməkdar İncəsənət Xadimi”, 1982-ci ildə isə “Xalq rəssamı” fəxri adına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidenti tərəfindən “Baba Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında” 28 noyabr 2005-ci il tarixli sərəncamına əsasən Bakının Zirə qəsəbəsində rəssamın adına küçə verilmiş, III Maqomayev döngəsi, 3 ünvanına xatirə lövhəsi vurulmuşdur.

Baba Əliyev 27 mart 1991-ci ildə vəfat etmişdir.

Hal-hazırda Baba Əliyevin 31 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Əyyub Hüseynov

Hüseynov Əyyub Müseyib oğlu 1916-cı ildə Naxçıvan Muxtar Respublikasının Noraşen rayonunun Xok kəndində anadan olmuşdur. O, 1935-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu, 1941-ci ildə isə Tbilisi Rəssamlıq Akademiyasını bitirmişdir.

Rəssam 1947-ci ildə Bakıya gəlmiş və dəzgah rəngkarlığının bütün janrlarında işləmişdir. 1948-1998-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda dərs demişdir. O, 1948-ci ildən pedoqoji fəaliyyətə başlamış, Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin direktoru kimi fəaliyyət göstərmişdir. Onun əmək mövzusunda çəkdiyi “Kömək gəlib”, “Yaylaqda”, “Çobanlar”, mənzərə janrında “Şahbuz”, Yağışdan sonra”, portretləri Aşıq Ələsgər”, “Əmək qəhrəmanı” hazırda müxtəlif muzeylərdə saxlanılır.

O, yalnız dəzgah rəngkarlığı ilə kifayətlənməmiş, bir sıra qrafik əsərlər, plakatlar yaratmış, rəsmlər işləmişdir.

Əyyub Hüseynovun Rumıniya, İtaliya və başqa ölkələrə səfərləri zamanı yaratdığı sənət əsərləri yaradıcılığının böyük bir hissəsini təşkil edir.

Sonrakı illərdə rəssam Avstriya, Fransa, Macarıstan, Çexoslovakiya səfərlərində məhsuldar işləmiş və özünü şəhər mənzərəsinin mahir ustası kimi göstərmişdir.

Rəssamın 1976-cı ildə 60 illiyinə həsr olunmuş fərdi sərgisi təşkil edilmiş, 1981-ci ildə isə o, “Əməkdar İncəsənət Xadimi” fəxri adına layiq görülmüşdür.

Əyyub Hüseynov 17 aprel 1998-ci ildə vəfat etmişdir.

Hal-Hazırda Əyyub Hüseynovun 22 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Tağı Tağıyev

Tağıyev Tağı Əzizağa oğlu 1917-ci il noyabrın 7-də Bakı şəhərində anadan olmuşdur. Kiçik yaşlı Tağının istedadının üzə çıxarılmasında Azərbaycanın görkəmli rəssamı və incəsənət xadimi Əzim Əzimzadənin mühüm rolu olmuşdur. O, 1931-1935-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, 1940-1941-ci illərdə Moskva Rəssamlıq İnstitutunda təhsil almışdır.

Tağı Tağıyev yaradıcılığında 40-cı illər xüsusi bir mərhələ təşkil edir. Rəssamın yaradıcılığının bu mərhələsi mövzu və janr baxımından rəngarəng və çoxşaxəlidir. Belə ki bəhs etdiyimiz dövürdə rəssam bir çox görkəmli tarixi şəxsiyyətlərin obraz-portretlərini çəkmişdir. Bu cür uğurlu işlərindən biri də proletar inqilabının rəhbəri V.İ.Leninin portretidir. Tağı Tağıyev Lenin obrazına müraciət edən ilk azərbaycanlı rəssam olmuşdur.

Tağı Tağıyevin yaradıcılığında portret janrı xüsusi yer tutur. Onun “Koroğlu” (1944), “Hüseyn Cavid” (1973), “Sultan Məhəmməd” (1971), “Səməd

Vurğun” (1967), “Səttar Bəhlulzadə” (1959), portretlərini qeyd etmək olar.

Rəssam yaradıcılığında mənzərə janrınada üstünlük vermişdir. Özünün çox saylı mənzərələrində rəssam Abşeron çimərliklərinin isti yay günlərini, Bakının dar küçələrini, bulvar buxtasının gecə çağını, Azərbaycan təbiətindəki yaşıllığın təravətini və göllərin şəffaflığını poetik ifadə üslubu ilə kətana köçürür. Məhz belə əsərlərində rəssamın fransız impressionizmindən yaradıcı şəkildə yararlanması, Serov və Korovinin rəng ləkələri, fakturalı yaxılar, hava ilə dolu plener rəngkarlığından faydalanması özünü biruzə verir. O, “Bakı” (1948), “Bakı səhəri” (1956), “Dənizdən açılan mənzərə” (1956), “Bakı sahili” adlı əsərlərin müəllifidir. Rəssamın mənzərə əsərləri içərisində insanların yaradıcı əməyinin əks olunduğu sənaye mənzərələri, təbiəti ram edən fəhlə və neftçi obrazları xüsusi ilə əhəmiyyətlidir. Tağı Tağıyev dəfələrlə Neft Daşlarına səfər etmişdir. Bu silsilədən olan əsərlər arasında “ Dənizdə səhər ”, “Rezervuarlar” və s. göstərmək olar.

Tağı Tağıyev 1982-ci ildə Azərbaycan “SSRİ Xalq rəssamı” adına layiq görülmüşdür. Tağı Tağıyev 1993-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Tağı Tağıyevin 54 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Ağa Mehdiyev

Ağa Cəfər oğlu Mehdiyev 1920-ci il martın 21-də İsmayıllı rayonunun Lahıc kəndində anadan olmuşdur. 1938-ci ildə Azərbaycan Rəssamlıq Texnikumunu bitirmişdir. Təhsilini bitirdikdən sonra bir çox respublika və ümumittifaq sərgilərində müntəzəm şəkildə iştirak etmişdir.

Ağa Mehdiyev dəzgah rəssamlığının bütün janrlarında səmərəli işlər yerinə yetirmişdir. Rəssamın “Savadlılar ailəsi”, “Köhnə neft mədənlərində”, “Qudok” qəzeti redaksiyasında”, “Balaca çoban” kimi əsərlərində həyatı, xalqın yaşam tərzi ustalıqla təsvir olunmuşdur.

Öz dəst-xətti və yaradıcılıq üslubuna malik rəssam kompozisiya quruluşunda əlavə detallardan imtina etmiş, əksər hallarda qəhrəmanlarını, əşyaları açıq təbiət fonunda təsvir etmişdir. Ağa Mehdiyev, kolorit həllində daha çox parlaq rənglərə üstünlük vermişdir. Onun bilərəkdən perspektiv və kolorit həllindən imtinası və eləcə də əyri, dalğalı xətlərlə

işləmə xüsusiyyətləri qədim miniatür sənətindən qaynaqlanır.

Rəssamın süjetli tabloları yüksək bədii və estetik gücə malikdir. Süjetli tablolarından olan "İntizar" (1975), "Xalq bayramı" (1976), "Günəşli gün" (1976), "Eyvanda" (1977), "Yaylaqda" (1977), və başqalarını qeyd etmək olar.

A.Mehdiyev eyni zamanda bir çox portret janrında da, əsərlər yaratmışdır. "Laçın qız" (1980), "Qız surəti" (1980), "Çobanın portreti" (1982), "İki ay" (1984), "Kamança çalan" (1984) və.s portret əsərləri buna əyani misaldır.

Rəssamın mənzərə janrında olan əsərləri lirik, emosional ovqatlı, konkret və lakonik həlli ilə diqqəti özünə cəlb edir. Mənzərələrin əsasını bir qayda olaraq real müşahidələr təşkil edir. Onun mənzərə janrında olan əsərlərindən "Qayıqlar" (1966), "Bürkü" (1977), "Qızmar gün" (1977), "Keçid" (1978), "Abşeron" (1979) və s. qeyd etmək olar.

1944-cü ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul edilmişdir. 1988-ci ildə Azərbaycan SSRİ "Əməkdar rəssamı" fəxri adına, 2002-ci ildə "Azərbaycan Xalq rəssamı" adına layiq görülmüşdür.

Ağa Cəfər oğlu Mehdiyev 15 may 2003-cü ildə vəfat etmişdir.

Hal-hazırda Ağa Mehdiyevin 53 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Böyükağa Mirzəzadə

Mirzəzadə Böyükağa Məşədi oğlu 1921-ci il fevralın 21-də Bakı şəhərində anadan olmuşdur. O, böyük Azərbaycan rəssamı Əzim Əzimzadənin rəhbərliyi ilə boyakarlıq sənətinin əsaslarını mənimsəmiş, 1939-cu ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir. 1940-cı ildə Moskva Rəssamlıq İnstitutuna daxil olan, lakin 1941-1945-ci illər müharibəsinin başlanması səbəbindən təhsilini davam etdirə bilməyən Böyükağa Mirzəzadə sonralar Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil almışdır.

Böyükağa Mirzəzadə çoxsaylı dəzgah rəngkarlığı, qrafika və səhnəqrafiya əsərlərinin müəllifidir. Onun yaradıcılığına müxtəlif dövrlərin avropa rəngkarlığı, rus realist məktəbi və Azərbaycan milli sənətinin ənənələri təsir göstərmişdir. 1950-1960-cı illəri Böyukağa Mirzəzadə yaradıcılığında təşəkkül dövrü kimi qiymətləndirmək olar. Mirzəzadə müxtəlif janrlarda, portret, lirik mənzərələr, natürmort, məişət əsərləri yaratmışdır. Böyükağa Mirzəzadənin fəhlə və kolxozçuların həyatına həsr olunmuş tematik rəsmləri

həyat reallığını əks etdirir. Həmin əsərlərdən “Qızıl əsgərlər kolxozçuların qonağıdır”, “Pambıq sahəsində”, “Pambıqçı S.Kərimovanın portreti”, “Pambıq yığımı” və s. qeyd etmək olar.

1950-ci illərdə Mirzəzadə neft mövzusuna müraciət edərək, industrial mənzərəni yaradır. Bunlara misal olaraq “Estakada”, “Yeddi gəmi adası”, “Neft avadanlığının daşınması” , “Göy dəniz” rəsmlərini göstərmək olar.

Rəssam yaradıcılığında portret janrına da müraciət etmişdir. Böyükağa Mirzəzadə “Maestro Niyazi”, “Rəqqasə Roza Cəlilova”nın portretlərində obrazların individual xüsusiyyət və xarekterlərin ifadəsini göstərmişdir. Böyükağa Mirzəzadə teatr sənətində də müvəffəqiyyət qazanmışdır. Rəssam on beşdən çox tamaşaya quruluş vermişdir. O, bir çox orden və medalla təltif edilmişdir. Ü.Hacıbəyov adına “Azərbaycan SSRİ Dövlət mükafatı lauratı” ilə təltif olunmuşdur. Rəssamın müstəqil respublikamızın ali mükafatına – “Şöhrət” ordeninə layiq görülməsidə onun sənət və şəxsiyyətinə verilən qiymətdir.

Böyükağa Mirzəzadə 2007-ci il noyabrın 3-də Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Böyükağa Mirzəzadənin 84 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Mikayıl Abdullayev

Abdullayev Mikayıl Hüseyn oğlu 19 dekabr 1921-ci ildə Bakıda anadan olmuşdur. İlk rəssamlıq təhsilini Bakı Rəssamlıq Texnikumunda almışdır. Daha sonra 1939-cu ildən təhsilini Surikov adına Moskva Dövlət İnstitutunda davam etdirmişdir. Əsərləri bütövlükdə milli ruhdadır. Tematik tablolar ustası kimi tanınan Mikayıl Abdullayevin yaradıcılığı klassik və müasir Azərbaycan ədəbiyyatına sıx bağlıdır. O bir çox yazıçı və şairlərin portretlərini, eləcədə onların əsərlərinə illüstrasiyalar işləmişdir. Bunların arasında N.Gəncəvi, İ.Nəsim, M.Füzuli, M.Vaqif, M.F.Axundov, Aşıq Ələsgər, M.Ə.Sabir, C.Cabbarlı, S.Vurğun, R.Rzanın və başqalarının əsərləri vardır.

Doğma təbiəti təsvir edən “Axşam”, “Mingəçevir işıqları”, “Səadət quranlar” əsərləri ölkəmizdə və xaricdə də müvəffəqiyyət qazanmışdır. ”Körpəsinin ardınca”, “Manqabaşçısı Rəxşəndə” və s. tablolarında dövrünün kənd adamları təsvir olunmuşudur. “Sevinc” tablosu ana məhəbbətini əks etdirir.

Mikayıl Abdullayevin yaradıcılığında 1956-1971-ci illərdə Hindistan, Əfqanıstan, Macarıstan, Polşa,

İtaliya və başqa ölkələrə səfərlər zamanı çəkdiyi rəsmlər silsiləsində (“Benqal qızları”, “Racəstan qadınları”, “Qoca əfqan”, “C.Mansu” və s) milli və fərdi xarakteristika, plastika, kolorit zənginliyi əsas yer tutur.

M.Abdullayevin yaradıcılığında Bakı metrosunun "Nizami" stansiyasının interyerinin bədii tərtibatı xüsusi yer tutur.

O, 1992-ci ildə 20 yanvar Şəhidlərinə həsr etdiyi "Nakamların dəfni" əsərini yaratmışdır.

Dahi sənətkar “Xalq rəssamı" adına layiq görülmüşdür. O, SSRİ Rəssamlıq Akademiyasına həqiqi üzv seçilən ilk rəssamdır. Cəvahirlər Nehru adına Belynəlxalq və “Azərbaycan SSR Dövlət mükafatı laureatı”dır. Müstəqil Azərbaycan Respublikasının "İstiqlal" ordeninə layiq görülmüşdür.

Mikayıl Abdullayev 2002-ci il avqustun 21-də Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Mikayıl Abdullayevin 42 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Oqtay Sadıqzadə

Sadıqzadə Oqtay Seyid Hüseyn oğlu 24 fevral 1921-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. O, tanınmış ədiblər- yazıçı Seyid Hüseynin və şairə Ümmügülsüm xanımın ailəsində dünyaya gəlmişdir. Valideynlərini repressiya illərində itirən Oqtay Sadıqzadə gənc yaşlarından rəssamlığa, ədəbiyyata maraq göstərməyə başlayıb. O, 1939-cu ildə Bakı Rəssamlıq Texnikumunu, 1956-cı ildə isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun qrafika ixtisası üzrə təhsilini bitirmişdir.

Oqtay Sadıqzadə tematik tablo, kompozisiya və portret janrlarında işləmişdir. Ayrı-ayrı janr və mövzularda yaratdığı boyakarlıq və qrafika əsərləri təsvir formalarının sadəliyi, rəngarəngliyi incəsənət tariximizdə özünəməxsus yer almışdır. O, respublika sərgilərində iştirak etmişdir.

“Çağırışçılar” tablosu rəssamın yaradıcılığında xüsusi yer tutur. Azərbaycanın elm və mədəniyyət xadimlərinə həsr edilmiş “Nizami Gəncəvi və dünya mədəniyyəti” adlı monumental silsilə əsərlərinin Qətran Təbrizinin, “Xurşudbanu Natəvan”ın portretinin, “1937-

ci il repressiyasının qurbanları” tablosunun və “Hüseyn Cavidin aləmi” triptixi kimi əsərlərin müəllifidir.

Oqtay Sadıqzadə “Əməkdar incəsənət xadimi”, “Xalq rəssamı”, “Şöhrət” , “Şərəf” ordeni və təsviri sənətin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltif edilmişdir .

Rəssamın qrafika və rəngkarlıq əsərləri hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində, eləcə də Tretyakov Qalereyası kimi mötəbər mədəniyyət mərkəzlərində nümayiş edilmişdir. Amerika Birləşmiş Ştatları, Almaniya, Kanada, İsrail, Belarus, Pakistanda və digər ölkələrdə əsərlərdən nümunələr şəxsi kolleksiyalarda saxlanılır.

Oqtay Sadıqzadə 20 dekabr 2014- cü ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Oqtay Sadıqzadənin 8 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Cavad Mircavadov

Cavad Mircavadov Mirhaşım oğlu 19 yanvar 1923-cü ildə Bakıda anadan olmuşdur. O, 1949–1954-cü illərdə Leninqradda yaşayıb yaratmışdır. Rəssamın 1989-cu ildə Moskvada Şərq Xalqları Muzeyində təşkil olunmuş fərdi sərgisinin annotasiyasında Cavad Mircavadov müasir Azərbaycan rəngkarlığının banisi adlandırılıb.

Azərbaycanın ötən əsrin "yetmişinci" illərində yaşamış əksər rəssamları "Cavad təsiri" altında formalaşmışdır. Bakının, Moskvanın, bir sıra Avropa ölkələrinin paytaxtlarında, həmçinin Yaponiya şəhərlərində onun sərgiləri təşkil olunmuşdur.

Cavad Mircavadovun ən erkən rəngkarlıq əsərləri 1967-ci il tarixinə aid edilir. Rəssamın yaratdığı div obrazı insanda ola biləcək alçaq və rəzil cəhətləri özündə birləşdirir. "Divin hiylələri" (1980), "Arena" (1981), "Ehtiras" (1983) kimi əsərlərini qeyd etmək olar.

Cavad Mircavadov "Toy" (1973), "Naxır bulağına" (1982), "Şaman-qadın" (1983), "Sakitlikdə və

sərinlikdə” (1984), “Çılpaq qadın” (1984), “Süsən ilə qız” (1986), “Uzanan qadın” (1987) əsərlərin müəllifidir.

Cavad Mircavadovun elə əsərləri var ki, rəssam bunların üzərində bir neçə il işləmişdir. “Müxtəlifliyin vahidlik panoramı” (1985-1987) adlı əsərində rəssam şərti olaraq müxtəlif xalq və tayfalara məxsus olan simaların nümunəsində bəşəriyyətin ümumi problem və qüsurlarla yükləndiyini nümayiş etdirməyə çalışmışdır. “Əsrin himni” və “Şərq miniatürü mövzusunda improvizasiya” bu qəbildən olan əsərlər silsiləsinə daxildir.

“Şərq miniatürü mövzusunda improvizasiya” silsiləsindən olan – “Atlılar” (1984), “Lüt-üryan” (1984), “Günəşli atlı” (1984), “Sarayda” (1985), həmçinin “Gəzinti” (1981), “Uşaq arabası” (1985) əsərləri də bu üslubda yaradılmışdır.

Rəssamın yaradıcılığında iki əsər xüsusi yer tutur. Bunlar “Məxfi gecə” (1982) və “Ümid işığı” (1982) tablolarıdır.

Cavad Mircavadov 24 iyun 1992-ci ildə vəfat etmişdir.

Hal-hazırda Cavad Mircavadovun 17 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



**Mahmud Tağıyev**

Tağıyev Mahmud Əzizağa oğlu 11 iyun 1923-cü il Bakı şəhərində anadan olmuşdur. O, 1941-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmiş, 1949-1953-cü ildə Moskvada, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun (VQİK) rəssamlıq fakültəsində, 1953-1956-cı illərdə İ.E.Repin adına Leninqrad Dövlət Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır.

Mahmud Tağıyev 1946-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. O, 1986-cı ildə Gürcüstanda, Tiflisdə keçirilən Zaqafqaziya respublikalarının 1-ci bienallında diplomu ilə təltif olunmuşdur. 1996-cı ildə isə BMT-nin Azərbaycandakı nümayəndəliyi tərəfindən Bakıda təşkil olunan "Müasir Azərbaycan incəsənəti" rəssamlıq müsabiqəsinin mükafatına layiq görülmüşdür.

Rəssamın "Əriklər" (1969), "Əncirlər" (1974), "Eyvan" (1987), "Natürmort", "Yaz gülləri" (1993), "Lalələr", "Almalar" (1993), "Məcnun", "Leyli", "Güldanda güllər", "Dağlarda bahar", "Bakı", "Neft emal

zavodunun işıqları”, “Avarçəkən”, “Yuxu”, “Çılpaq”, “Dədə Qorqud”, “Səməd Vurğun”, “Yeddi gözəl” adlı əsərlərini qeyd etmək olar.

Mahmud Tağıyevin Bakıda (1947-ci ildə X.Səfərova ilə birgə,1958, 1969, 1993), Moskvada (1990, 1988-ci illərdə X.Səfərova ilə birgə) fərdi sərgiləri keçirilmişdir.

Mahmud Tağıyev 1968-ci ildə Azərbaycan SSR “Əməkdar rəssamı” fəxri adına layiq görülmüşdür.

Mahmud Tağıyev 21 noyabr 2001-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Mahmud Tağıyevin Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda 26 əsəri qorunub saxlanmaqdadır.



## Vəcihə Səmədova

Səmədova Vəcihə Əli qızı 1924-cü ildə Bakı şəhərində anadan olmuşdur. O, təhsilini 1939-1944-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda almışdır. Daha sonra, Vəcihə Səmədova V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna qəbul olmuş və V.Yakovlev və P.Korinindən dərs almışdır. Rəssam 1951-ci ildə tamamladığı diplom işi "Azərbaycan bəstəkarları" əsəri olmuşdur.

Vəcihə Səmədova Azərbaycanın ilk peşəkar qadın rəngkarı sayılır. Rəssamın yaradıcılığı forma və məzmun dolğunluğuna, mövzuya sərbəst yanaşma ustalığı və kompozisiya quruluşuna, zəngin kolorit həllinə, ritmik rəng keçidlərinə, dinamik plastika və işıq-kölgə münasibətlərinə görə seçilir.

Onun portret əsərlərinə misal olaraq "Avtoportret", "Aktrisa Leyla Bədirbəylinin portreti" , "Sürəyya Kərimovanın portreti", "Söhbət İbrahimovanın portreti" və digərlərini göstərmək olar.

Rəssamın tematik tablolarından “Mahnı”, “Toy günü”, “Nişan aparanlar”, “Kür qırağında”, “Xəbər gözləyənlər”, “İmtahandan əvvəl”, “Gözləmə” diqqəti cəlb edir.

Onun ən yaddaqalan əsərlərindən “Kür qırağında” tablosu mürəkkəb kompozisiya quruluşuna və dərin bədii ifadə həllinə malikdir. Mənzərə əsərlərindən “Qoşqar yaylağında”, “Göy göl”, “Kəpəz”, “Kür sahillərində”, “Zığ”, “Çadırlar” və s. qeyd etmək olar.

Vəcihə Səmədovanın 1962-ci ildə Bolqarıstana yaradıcılıq ezamiyyəti yeni istiqamətin inkişafına təkan verir. Rəssamın bu silsiləyə daxil olan əsərlərinə “Sofiya bazarında”, “Qoca bolqar qadınları”, “Plovdiv qayaları”, “Türk qızı”, “Tırnovo”, “Sozopolun dənizdən görüntüsü ” və başqalarını qeyd edə bilərik.

Vəcihə Səmədova Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin üzvü və Rəngkarlıq Seksiyasının sədri olmuş (1960), Azərbaycan SSRİ “Əməkdar İncəsənət Xadimi” (1965) fəxri adına layıq görülmüşdür.

1965-ci ildən Azərbaycan Rəssamlar İttifaqının sərgi salonu Vəcihə Səmədovanın adını daşıyır.

Vəcihə Səmədova 25 oktyabr 1965-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Vəcihə Səmədovanın 4 əsəri Azərbaycan Dövət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Nadir Əbdürrəhmanov

Əbdürrəhmanov Nadir Qəmbər oğlu 5 dekabr 1925-ci ildə Laçın şəhərində anadan olmuşdur. O, 1941-1944-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxumuş, 1947-1953-cü illərdə isə Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsilini bitirmişdir.

Yaradıcılığına xas olan yeni forma axtarışları, sərt realist üslub və miniatür sənəti ilə səsləşən orijinal dəst-xətti, təsviri sənətdə dekorativliyə və kolorit zənginliyinə xüsusi diqqət yetirməsi rəssamın özünəməxsus üslubunun formalaşmasında mühüm rol oynamışdır. Onun müxtəlif janrlarda yaratdığı iriformatlı süjetli lövhələr qiymətli sənət nümunələri kimi rəssamlıq tariximizə daxil olmuşdur.

Nadir Əbdürrəhmanovun tanınmış əsərləri arasında dövrünün müasir həyatını əks etdirən “Dağda toranlıq”, “Sevimli naxışlar”, “Talış qızları”, “Dağlarda bahar”, “Bizim dağların insanları”, “Firuzə dünyası” tablolarını qeyd etmək olar.

O, 1954-cü ildən Azərbaycan Rəssamlıq Məktəbində dərs demiş, 1984-cü ildən etibarən Azərbaycan Mədəniyyət və İncəsənət İnstitutunun professoru kimi çalışmış, Azərbaycan Rəssamlıq Akademiyasında yaradıcılıq emalatxanasının rəhbəri olmuşdur. 1960-cı ildə rəssam “Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi”, 1964-cü ildə isə “Xalq rəssamı” fəxri adlarını almışdır.

Respublikamızın ali mükafatı "Şöhrət" ordeninə layiq görülməsi onun sənət və şəxsiyyətinə verilən qayğıdır.

Nadir Əbdürrəhmanov 26 iyun 2008-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Nadir Əbdürrəhmanovun 42 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Əşrəf Muradoğlu

Əşrəf Murad oğlu 1925-ci il oktyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. Rəssamlığa olan böyük marağı onu 1941-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə gətirir. Burada o, Mikayıl Abdullayevdən dərs almışdır. Rəssam istedadı ilə hələ tələbə olan zaman müəllimlərini, hətta onu tanıyanları belə heyrətləndirib. Rəssamlıq Məktəbini bitirəndən sonra 1947-ci ildə Əşrəf Murad oğlu Leninqradda (indiki Sankt-Peterburq) İ.Y.Repin adına Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutuna qəbul olunmuşdur. 1954-cü ildə Əşrəf Murad diplom işində «M.F.Axundov və Y.M.Lermontov» əsərini müdafiə edərək təhsilini başa vurmuşdur.

Əşrəf Muradın yaradcılığındakı avanqard kompozisiya həlli bu gündə aktualdır. Kompozisiya seçimi, ekspressiv rəngləri, obrazların emosionallığı rəssamın rəngkarlıq improvizələridir. 1973-cü ildə çəkdiyi “Ata və Oğul”, “Musiqiçilər” əsərləri rəssamın ən uğurlu tablolarındandır. Əşrəf Muradın ənənəvi mövzularda yaratdığı əsərlər belə öz təkrarsızlığı, bədii

zənginliyi ilə fərqlənir. “Lenin Smolnıda”, “Tehran konferensiyası” (1975), “Kosmonavt Tereşkovanın portreti”, “N.K.Krupskaya” (1976), “Napoleon” (1978) kimi məşhur əsərlərinin obrazlarını özünəməxsus üslubda çəkmişdir. “Tehran konferensiyası” əsərində rəssam- Ruzvelti, Çörçili, Stalini əks etdirmək üçün monumental boyakarlıq üsullarından istifadə edib. Ona görə bu tablo bir növ Meksika divar kağızlarını xatırladır.

Ə.Muradoğlunun əsərlərində adətən kətanın yuxarısında boş zolaq olur. İlk baxışdan anlaşılmaz görünən bu zolaq əslində kompozisyanı sonsuzluğa aparır. “Dəniz axşamçağı”, “İdmançı qız çimərlikdə” , “Aktrisa Linda” tablosunun koloriti belə əsərlərindəndir.

Sağlığında fərdi sərgisi olmayıb. Ölümündən sonra ilk dəfə ictimai xadim Ramiz Abutalıbovun təşəbbüsü ilə 1984-cü ildə Vəcihə Səmədova adına sərgi salonunda fərdi sərgisi keçirilmişdir.

Əşrəf Muradoğlu 11 mart 1979-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Əşrəf Muradoğlunun 6 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Xalidə Səfərova

Səfərova Xalidə Ələkbər qızı 1926-cı il avqustun 25-də Gəncə şəhərində anadan olmuşdur. 1944-cü ildə Ə.Əzimzadə adına İncəsənət məktəbini bitirmişdir. 1946-cı ildə Mahmud Tağıyev ilə ailə həyatı quran rəssam Azərbaycanın bölgələrinə etdiyi səfərlərinin hesabatını, 1947-ci ildə Bakıda keçirilən ilk birgə sərgidə vermişdir. Sərgidə 150-dən çox etüd, mənzərə və natürmort əsərləri nümayiş olunmuşdur. Təqdim olunan əsərləri sırasına “Üç palıd”, “Yağışdan əvvəl”, “Bağda natürmort”, “Üzümlükdə natürmort” kimi işləri xüsusilə qeyd etmək olar.

Rəssam 1955-ci ildə Moskvada, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun (VQİK) rəssamlıq fakültəsini bitirmişdir. Xalidə Səfərovanın diplom işi Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasına çəkilən illüstrasiyalar SSRİ Rəssamlıq Akademiyasının sərgisində, eləcə də VQİK-in yubleyində Praqa və Parisdə nümayiş olunur.

Xalidə Səfərova 1960-cı illərdə idman mövzusunu işləmiş və inkişaf etdirmişdir. Rəssam idman mövzusu çərçivəsində futbol oyunları,

velosipedçi yürüşü, avarçəkmə təsvirlərindən ibarət çoxfiqurlu kompozisiyalar çəkirdi. Onun “Gimnastlar”, “Estafet”, “Velosipedçi” (1969) əsərləri buna nümunədir.

Onun portretlərindən “Qapıçı”, balerina “Leyla Vəkilovanın portreti”, rəssam “Maral Rəhmanzadənin portreti”, rəssam “Mahmud Tağıyevin portreti” adlarını çəkmək olar.

Rəssamın yaradıcılığının əsasını mənzərə və natürmort janrında çəkilən əsərlər təşkil edir. Xalidə Səfərovanın güllərlə natürmort silsiləsinə “Payızgülü” (1956), “Zinya çiçəyi” (1971), “Bahar çiçəkləri” (1971), “Monmartr gülləri” (1985) kimi əsərləri daxildir.

Xalidə Səfərova yaradıcılığının 1970-ci illərinə yaddaqalan əsəri “Mənim diyarım” triptixidir. Əsərin mərkəzi “Bürkü”, yan hissələri isə “Səhər” və “Axşam” adlanır.

Xalidə Səfərova Azərbaycanın “Əməkdar rəssam” (1977), “Xalq rəssamı” (1989) fəxri adlarına layiq görülmüşdür.

Rəssam 23 dekabr 2005-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Xalidə Səfərovanın 29 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Davud Kazımov

Kazımov Davud Mehdi oğlu 1926-cı ilin noyabr ayının 6-da Bakıda İçərişəhərdə dünyaya gəlmişdir. Sənətin sirlərini ilk olaraq Azərbaycanın xalq rəssamı Kamil Xanlarovun rəssamlıq dərnəyində almışdır. 1941-1945-ci illərdə Əzim Əzimzadə Rəssamlıq Texnikumunda təhsilini davam etdirmişdir. 1946-cı ildə Rəssamlar İttifaqına üzv qəbul olunmuşdur. Davud Kazımov 1973-1979-cu illərdə Teatrşünas ixtisası üzrə Azərbaycan İncəsənət İnstitutunu bitirmişdir.

Davud Kazımov Respublikanın müxtəlif rayonlarında yaradıcılıq ezamiyyətlərində olmuşdur. Orada zəngin təsvir materialı ilə qayıtmışdır.

Davud Kazımovun bir sıra əsərləri Azərbaycanın müxtəlif muzeylərində saxlanılır. Firdovsinin “Şahnamə”sinə çəkilmiş illüstrasiyaları R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır. Digər kitabları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyində qorunur.

1980-ci ildə İspaniyada səfərdə olan rəssam vətənə döndükdən sonra rəngkarlıq və qrafika

işlərindən ibarət sərgisi keçirilmişdir. Davud Kazımov 1977-ci il “Əməkdar rəssam”, 1992-ci “Xalq rəssamı”, 1996-cı ildə isə “Professor elmi” adına layiq görülmüşdür. Xalq rəssamının əsərləri Almaniya, Çexoslovakiya, İtaliya, İraq, Türkiyə və başqa ölkələrdə nümayiş etdirilib. Hazırda rəssamın bir sıra əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Tarix Muzeyi və Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində nümayiş etdirilir.

Davud Kazımov 14 fevral 2015-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Davud Kazımovun Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda 31 əsəri qorunub saxlanmaqdadır.



## Elbəy Rzaquliyev

Rzaquliyev Elbəy Həsən oğlu 17 iyun 1926-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmiş, 1946-cı ildə Ümumittifaq Dövlət Kinomatoqrafiya İnstitutuna daxil olmuşdur. Elbəy Rzaquliyev həmin institutu film üzrə quruluşçu rəssam kimi bitirən ilk azərbaycanlıdır.

Elbəy Rzaquliyev Moskvadan qayıtdıqdan sonra (1953-cü ildən) "Azərbaycan film" kinostudiyasında işləməyə başlamışdır. Onun yaradıcılığı əsasən iki əsas istiqamətdə inkişaf etmişdir: dəzgah rəngkarlığı və kino rəssamlığı.

O, rəssam kimi xarici səfərlərindən bəhrələnmişdir. “Meksikada”, “Ərəb ölkələrində”, “Hindistan abidələri”, “Yaponiya”, “Nepal”, “İtaliya”, “ABŞ” kimi yaradıcı silsilə əsərləri vardır. Elbəy Rzaquliyevin yaradıcılığında önəmli yeri qumsalları, yastı damlı evləri ilə Abşeron, köhnə hamamları tutur. Yaratdığı əsərlər “Neftçinin portreti”, “Təmirçilər”, “İnsanların torpağı”, “Çiçəklər arasında”, “Qırmızı və ağ qızıl güllər”, “Xəncər və məişət əşyalarından ibarət natürmort”, “Tac-Mahal”, “Yaponiya silsiləsi”, “Meksika qızları”, “İki Ərəb”, “Əmək adamları”, “Ana",

"Montajçılar", “Bakı inqilabı dövründə” silsiləsi, “Mirzə Ələkbər Sabir”, “Üzeyir Hacıbəyovun dünyası”, “Kənddə” və digərləri böyük maraqla qarşılanmışdır. “Sevil”, “Arşın mal alan”, “Görüş”, “Ögey ana”, “Telefonçu qız”, “Uşaqlığın son gecəsi” və s. kinofilmlərin quruluşçu rəssamı olmuşdur.

1977-ci ildə Azərbaycanın “Xalq rəssamı” fəxri adına, 1986-cı ildə “SSRİ Dövlət mükafatı”na, 1998-ci ildə "Şöhrət" ordeninə layiq görülmüşdür. Azərbaycan Rəssamlar İttifaqının katibi olmuşdur.

Elbəy Rzaquliyev 15 sentyabr 2007-ci ildə vəfat etmişdir.

Hal-hazırda Elbəy Rzaquliyevin 40 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Cahangir Rüstəmov

Cahangir Mahmud oğlu Rüstəmov 5 mart 1926-cı ildə Şəki şəhərində anadan olmuşdur. O, 1939-cu ildə 7 illik məktəbi bitirmiş, 1939-1944-cü illərdə isə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsil almışdır. Cahangir Rüstəmov Rəssamlıq məktəbini başa vurduqdan sonra, Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuşdur. Lakin ailəsinin çətin vəziyyəti səbəbindən təhsilini yarımçıq qoyub Bakıya qayıtmışdır.

Rəssamın yaradıcılığı rəngkarlığın bir çox janrını əhatə edərək, milli ruhu və poetikliyi ilə fərqlənir. Cahangir Rüstəmovun yaratdığı tarixi mövzuda çox fiqurlu lövhələr, həm bayram, zəhmət və istirahət mövzusunda kompozisiyalar, həm də məişət tabloları, epik mənzərələr, portretlər və ifadəli natürmortlar buna nümunədir. Onun əsəsrləri milli koloriti, emosionallığı ilə şöhrət qazanmışdır.

Cahangir Rüstəmov 1945-ci ildə respublika rəssamlıq sərgisində “Axırıncı düşmən əsgəri” adlı əsəri ilə iştirak etmişdir. O, 1955-ci ildə SSR Rəssamlar İttifaqı

üzvülüyünə qəbul olunmuşdur. Rəssamın 1953-cü ildə Bakıda hesabat sərgisi açılmışdı.

Təsviri sənətimizin inkişafındakı xidmətlərinə görə Cahangir Rüstəmov 1982-ci ildə “Əməkdar rəssam”, 2004-cü ildə isə “Xalq rəssamı” fəxri adlarına layiq görülmüşdür. Rəssamın 2002-ci ildə Bakıda Vəcihə Səmədova adına sərgi salonunda fərdi sərgisi açılmışdır. O, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərdi  Təqaüdçüsü olmuşdur.

Cahangir Rüstəmov 13 fevral 2007- ci ildə vəfat etmişdir.

Hal-hazırda Cahagir Rüstəmovun 25 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Rasim Babayev



Babayev Rasim Hənifə oğlu 31 dekabr 1927-ci ildə Bakı şəhərində anadan olmuşdur. İlk ixtisas təhsilini Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq Texnikumunda, ali təhsilini isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda almışdır.

Təsviri sənətimizin rəngkarlıq və qrafika sahəsində yüksək bədii təsir gücünə malik, bir-birindən maraqlı əsərlərin müəllifidir.

Rəssamın yaradıcılığında xüsusi yer tutan “Qobustan”, “Səma”, “Xəyalpərəst div”, “Söhbət”, “Püstə ağacı”, “Sahil”, “Torpaq”, “Səma” əsərləri muzey ekspozisiyalarında nümayiş etdirilmişdir.

Rasim Babayevin dəzgah qrafikasında yaratdığı linoqravür silsilələrinə və dəzgah rəsmləri nümunələrinə misal olaraq “Neft çənləri”, “Neftin doldurulması”, “Qız”, “Qara şəhər”, “Daşkəsən yollarında”, “Fəhlənin portreti”, “Almaniyada”, “Xınalıq”, “Dəvələr”, “Hamamlar”, “Qaçaq Nəbi”, “Köhnə Bakı”, “Narlar”, “Kənd”, “Qədim qəbiristanlıq”, “Rəssam Ə.Rzaquliyev” və başqa əsərlərini göstərmək olar.

Rasim Babayev həmçinin kitab qrafikası sahəsində də uğurlu fəaliyyət göstərmişdir. N.Hikmətin "Kəllə", T.Drayzerin "Dahi", R.Taqorun "Fəlakət", Y.V.Çəmənzəminlinin "Hekayələr"inə, "Cırtdan" xalq nağılına və başqa ədəbi nümunələrə çəkdiyi illüstrasiyalar diqqəti cəlb edir.

1959-cu ildə Rəssamlar İttifaqına üzv qəbul edilib. R.Babayev 1964-cü ildə "Əməkdar rəssam", 1989-cu ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülüb. Dəfələrlə xaricdə yaradıcılıq ezamiyyətlərində olmuşdur. Rasim Babayevin bəzi əsərləri Moskvada Tretyakov qalereyasında və Şərq Xalqları İncəsənəti Muzeyində və şəxsi kolleksiyalarında saxlanılmış, fərdi sərgiləri təşkil edilmişdir.

Rasim Babayev 24 aprel 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal- hazırda Rasim Babayevin 20 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Tahir Salahov

Salahov Tahir Teymur oğlu 1928–ci il noyabrın 29–da Bakı şəhərində anadan olmuşdur. 1957–ci ildə V.İ.Surikov adına Moskva Dövlət İncəsənət İnstitutunu rəssam–nəqqaş sənəti üzrə bitirmişdir.

Azərbaycan İncəsənət İnstitutu, eləcə də V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunda pedaqoji fəaliyyət göstərən ustad sənətkar sərt üslubda işləyən realist rəssam kimi tanınır. Onun əsərləri mövzu və janr zənginliyi, bədii forma əlvanlığı və estetikliyi ilə seçilir.

Peşəkar rəssam kimi ilk əsəri kətan üzərində əks etdirdiyi "Gecə növbəsindən qayıdanlar" adlı diplom işi olub. Sənətkarın məhz bu tablosu Azərbaycan təsviri sənətində "Sərt üslub" deyilən yeni istiqamətin ilk nümunələrindən biridir.

Ümumittifaq Rəssamlıq Sərgisində nümayiş etdirilən iki əsəri "Bəstəkar Qara Qarayevin portreti" və "Təmirçilər" böyük uğur qazanmışdır.

T.Salahovun kətan üzərində yerinə yetirdiyi rəngkarlıq əsərləri daha çox sərt və tünd rəngləri ilə fərglənir. T.Salahov bir-birindən fərqli mövzulara

müraciət etmiş, həmçinin, əmək mövzulu "Səhər eşelonu" və "Rezervuar parkı" adlı sənaye mənzərələri, "Abşeron qadınları" və "Aydan" tabloları təsviri sənətə yol tapa bilmişdir.

Bəstəkar Dmitri Şostakoviç, Fikrət Əmirov, şair Rəsul Rzanın psixoloji portretləri sənət sevənlərin böyük marağına səbəb olmuşdur. Rəssamın doğma diyara həsr etdiyi bir neçə əsərinin reproduksiyaları 2008–ci ildə buraxılan iki təqvimə də daxil edilmişdir. Həmin əsərlərdən "Köhnə Bakı", "Səhər ovu", "Nardaran qarpızları", eləcə də "Odlar Yurdu" triptixi – "Atəşgah", "Xəzər bu gün" və "Qız qalası" nın adlarını qeyd etmək olar..

T.Salahov son illərə aid tabloları ilə portret qalereyasını daha da zənginləşdirmişdir. Salahovun şah əsərlərindən biri mərhum Prezident Heydər Əliyevin portreti, digər məşhur əsəri isə dünya şöhrətli həmyerlimiz Mstislav Rostropoviçin monumental portretidir.

T.Salahov Sovet İttifaqının yüksək mükafatlarını almışdır. O, Sosialist Əməyi Qəhrəmanıdır. Rusiyanın "Vətən qarşısında xidmətlərinə görə" ikinci və üçüncü dərəcəli , 2008-ci ildə "Heydər Əliyev", "İstiqlal" eləcə də Bolqarıstan, Polşa, Monqolustan və başqa ölkələrin ordenlərinə layiq görülmüşdür.

Hal-hazırda Tahir Salahovun 8 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Tələt Şıxəliyev

Şıxəliyev Tələt Ağalar oğlu 1 may 1928-ci il Masallı rayonunun Digah kəndində anadan olmuşdur. O, 1951-ci ildə Azərbaycan Dövlət Rəsm məktəbini, 1960-cı ildə Kiyev Dövlət rəsm akademiyasını bitirmişdir.

Tələt Şıxəliyev 1962-ci ildən dünyanın bir çox ölkələrində keçirilən sərgilərdə iştirak etmişdir. O, “Abşeron məktəbi” kimi tanınan istedadlı rəssamlardan ibarət qrupun istedadlı üzvlərindən biri olub. İlk fərdi sərgisi 1976-cı ildə Vəcihə Səmədova adına sərgi salonunda keçirilmişdir.

Rəssam 1972-ci ildə öz dəsti xəttini tapır, o palitrasında qızılı sarı və dinamik yaxmalardan (mazok) istifadə etmişdir. Rəssam yaradıcılığında portret janrına üstünlük verir.

Onun ilk əsərlərindən “Güzgü ilə qız” (1968), “Qız qalası” (1971) əsərlərin adlarını qeyd etmək olar.

Daha çox portret janrına müraciət edən rəssamın hər bir obrazı fərdi xüsusiyyəti, həyata baxışı və əhval-ruhiyyəsi ilə seçilir. Uşaq dünyası da rəssamın yaradıcılığında xüsusi yer tutur. “Oğlumun

portreti”, “Gənc rəssam”, “Qızım yatarkən”, “Uşaq və pişik” kimi tabloları uşaqların marağını cəlb edəcək, baxarkən göz oxşayan  əlvan rənglərin dili ilə açmağa çalışmışdır.

Tələt Şıxəliyev 1964-cü ildə Azərbaycan və SSRİ Rəssamlar İttifaqının üzvü seçilmiş, 1982-ci ildə isə “Əməkdar rəssam” fəxri adına layiq görülmüşdür.

Tələt Şıxəliyev 1987-ci ildə vəfat etmişdir.

Hal-hazırda Tələt Şıxəliyevin 33 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Toğrul Nərimanbəyov



Nərimanbəyov Toğrul Fərman oğlu 7 avqust 1930-cu ildə Bakıda anadan olmuşdur. 1950-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini, 1955-ci ildə Litva Dövlət İncəsənət İnstitutunu bitirmişdir. T.Nərimanbəyovun romantik aspektdə işlənmiş tabloları gərgin ritm və ekspressiv əlvanlığı ilə zəngindir.

Rəssamın yaradıcılığı abstraksionizm və fiquratizm uslubuna aid edilir. Mənzərə, portret, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı kimi müxtəlif sahələrdə yaratdığı əsərlər mövzu və janr rəngarəngliyi, həmçinin özünəməxsus üslubu ilə səciyyələnmişdir. Fərdi üslubunu müəyyən edən başlıca xüsusiyyətlər dekorativ Azərbaycan incəsənətinin  rəng harmoniyası və müasir dünya incəsənətinin yeni istiqamətləri ilə sıx bağlı olmuşdur. Toğrul Nərimanbəyov insanların daxili aləminin təsvirini verən portretləri öz orijinallığı ilə seçilmişdir. Ayrı-ayrı tamaşalara verdiyi bədii tərtibatlarla Azərbaycan teatr rəssamlığının dəyərli nümunələrini yaratmışdır. Rəssamın monumental boyakarlıq və

divar rəsmi janrında işlənmiş tabloları xəlqilik ruhu ilə seçilir.

Portret, mənzərə, məişət və natürmort janrlarında çəkdiyi əsərləri dünyanın sərgi salonlarında, rəsm qalereyalarında və incəsənət muzeylərində uğurla nümayiş etdirilir, müxtəlif dövlətlərin muzeylərində və ayrı-ayrı şəxslərin kolleksiyalarında saxlanılır.

T.Nərimanbəyov Azərbaycan və dünya incəsənətinin ən yaxşı ənənələrinə əsaslanaraq “Bakı” (1965), “Göyçay bağlarında” (1965), “Bahar yarmarkası”, “Narlar və armudlar” (1961), “Bayram qabağı” (1971), “Çiçəklər”, “Köhnə çinar”, “Qız qalası”, “İçərişəhər xatirələri” (2009) natürmort və peyzajları üzərində işləmişdir.

Rəssam 1967-ci ildə Azərbaycan SSRİ “Xalq rəssamı”, 1989-cu ildə SSRİ “Xalq rəssamı” adına layiq görülmüşdür. 1980-ci ildə “SSRİ mükafatı”, 1974-cü ildə “Azərbaycan SSRİ Dövlət mükafatı” almış, 2000-ci ildə “İstiqlal”, 2010-cu ildə “Şərəf” ordenləri ilə təltif olunmuşdur.

Azərbaycanın dünya şöhrətli rəssamı Toğrul Nərimanbəyov 2 iyun 2013-cü ildə Paris şəhərində vəfat etmiş, şəhərin mərkəzində yerləşən Passi qəbiristanlığında dəfn olunmuşdur.

Hal-hazırda Toğrul Nərimanbəyovun 34 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



**Oqtay Şıxəliyev**

Şıxəliyev Oqtay Yusif oğlu 3 sentyabr 1931-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1947-ci il Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olmuşdur. 1952-1958-ci illərdə Rəssamlıq Məktəbini fərqlənmə diplomu ilə bitirdikdən sonra Muxina adına Leninqrad Ali Rəssamlıq Məktəbinə daxil olmuşdur..

Oqtay Şıxəliyev Sankt-Peterburq şəhərində təhsilini bitirdikdən sonra aparıcı rəssam-monumentalistlər qrupuna daxil olmuşdur..

XX əsrin 60-cı illərdən etibarən bir çox ictimai binaların- idman sarayı, məktəb, zavod, metrostansiya, park və s. və binaların eksteryeri və interyerinin bədii tərtibatını vermişdir. Rəssam öz əsərlərini freska rəngkarlığı ilə yanaşı mozaika və kaşı sənətinin bütün imkanlarından, plastik materiallarından istifadə etməklə yaratmışdır.

Rəssam 70-ci illərdə yaratdığı əsərlərində şəbəkə, divar rəsmləri, mis üzərində döymə, orta əsr miniatürləri, xalça sənəti və ornamentləri, memarlıq

detallarından yararlanmışdır. O.Şıxəliyev H.Rəcəbovla birlikdə hazırladığı “Respublika Ovçular Evi”nin 1971-ci ildə tikilmiş binasının iclas zalının tərtibatını Azərbaycanın canlı təbiətinə həsr etmişdir.

Rəssamın portret və mənzərə janrında işlədiyi “Mənim qaracam” (1970), “Tarzən Bəhram Mansurov” (1972), “Rəssam Rasim Babayev” (1975) və s. əsərlərindəndir.

Oqtay Şıxəliyevin əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Novosibirsk Milli İncəsənət Muzeyi, Moskva və Sankt-Peterburqun Şərq İncəsənət muzeylərində nümayiş etdirilir, o cümlədən “Qaraca qız” (1970) rəsmi isə Əlcəzair muzeyində saxlanılır. Bəzi tabloları Azərbaycan, Fransa, Almaniya şəxsi kolleksiyalarında qorunur.

O.Şıxəliyev 1960-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvü olmuşdur. 1964-cü ildən M. Əliyev adına İncəsənət İnstitutunda pedaqoji fəaliyyətə başlamış, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında müəllim və professor kimi çalışmışdır.

O,1982-ci ildə SSRİ “Əməkdar rəssamı” və 1992-ci ildə “Azərbaycan Xalq rəssamı” adlarına layiq görülmüşdür. Oqtay Şıxəliyev 31 yanvar 2012-ci ildə vəfat etmişdir.

Hal-hazırda Oqtay Şıxəliyevin 20 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Elmira Şahtaxtinskaya

Elmira Şahtaxinskaya Həbibulla qızı 25 oktyabr 1930-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin təsviri incəsənət fakültəsini bitirmiş, 1950-ci ildə V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunun qrafika fakültəsinə qəbul olunmuşdur. 1956-cı ildə Moskvada təhsilini başa vuran rəssam fəal yaradıcılığa başlamışdır.

E.Şahtaxtinskaya yaradıcılığında 100- dən artıq plakat yaratmışdır. Əməyə, sülhə, müharibəyə, idmana və digər mövzulara həsr olunmuş əsərlər arasında “Bizə sülh lazımdır”, “Yeni rekordlara doğru”, “Təcavüzə son qoymaq-mədəniyyəti müdafiə etmək” və digərlərinin adlarını çəkmək olar. O, ekologiya mövzusunda silsilə plakatlar yaratmışdır. Bunlara misal olaraq “İnsan”, “Yer üzündə həyatı qoru”, “Bakı ən yaşıl, ən gözəl olacaq” əsərlərini göstərmək olar.

Rəssam 1970–ci illərdə “Azərbaycan qədim mədəniyyət diyarıdır” plakatlar silsiləsində Azərbaycanın orta əsrlərdə yaşamış elm və mədəniyyət xadimlərinin (Məhəmməd Füzuli,

İmadəddin Nəsimi, Məhsəti Gəncəvi, Nəsirəddin Tusi, Əcəmi Naxçıvani, Sultan Məhəmməd və s.), 1970–1980–ci illərdə isə müasir sənətkarların (Hüseyn Cavid, Səməd Vurğun, Üzeyir Hacıbəyli, Səttar Bəhlulzadə, Qara Qarayev, Fikrət Əmirov və s.) portretlərini yaratmışdır.

Elmira Şahtaxtinskaya SSRİ və Azərbaycan Rəssamlar İtifaqının İdarə Heyətinin üzvü, “Azərnəşr”in bədii redaktoru, Nəşriyyat və Poliqrafiya üzrə Dövlət Komitəsinin baş rəssamı, SSRİ-nin Mədəniyyət Nazirliyinin Bədii Şurasının üzvü, eləcə də “Plakat” nəşriyyatının Zaqafqaziya üzrə komissiyasının üzvü olmuşdur.

E.Şahtaxtinskaya “Şərəf ordeni” ilə təltif edilmiş, 1963–cü ildə “Əməkdar İncəsənət Xadimi”, 1977–ci ildə isə “Azərbaycanın Xalq rəssamı” adına layiq görülmüşdür.

Elmira Şahtaxtinskaya 1996-cı il 13 oktyabrda Moskva şəhərində vəfat etmişdir.

Hal-hazırda Elmira Şahtaxinskaya 16 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

### Qəzənfər Xalıqov



Xalıqov Qəzənfər Ələkbər oğlu 1898-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1928-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir. Qəzənfər Xalıqov 1929-1930-cu illərdə "Molla Nəsrəddin" və 1953-1958-ci illərdə isə "Kirpi" jurnallarında karikaturaçı rəssam kimi fəaliyyət göstərmişdir. Rəssam "Xosrov və Şirin" (1940), "İsgəndər Namə" (1953) akvarel rəsmlərinin, Azərbaycan Milli İncəsənət Muzeyi), "Nizaminin portreti" (1940, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi), "Qadınlar şurası" (1930) əsərlərinin müəllifidir. O, eləcədə bir sıra plakat, teatr eskizləri, qrafik silsilələrini ("Neft") yaratmışdır.

1934-cü ildə Bakıda Firdovsinin 1000 illik yubileyi üçün həsr olunmuş sərgidə "Firdovsinin dəfni" əsəri ilə çıxış etmiş dir.

1935-ci ildə Azərbaycanda istehsal olunmuş "Abbasın bədbəxtliyi" adlı cizgi filminin rəssamlarında biridə Qəzənfər Xalıqov olmuşdur. Bu film müsəlman

dünyasında hazırlanmış ilk cizgi filmidir. Bununla yanaşı Mirmehdi Seyidzadənin "Nərgiz" , Şota Rustavellinin "Pələng dərisi geymiş pəhləvan" poemlərinə və Əli Ağa Vahid qəzəllər , Xəqani Şirvaninin şeirlər toplusuna illustrasiyalar, o cümlədən, "Sehirli xalat" filminə (1964) , Üzeyir Hacıbəylinin "Koroğlu" operasina və s. eskizlər çəkmişdir.

Abşeron rayonunun Qobu qəsəbəsində Qəzənfər Xalıqovun şərəfinə orta məktəb və küçə adlandırılmışdır. 1959-cu ildə Qəzənfər Xalıqov "Şərəf Nişanı" ordeni, 1973-cü ildə isə "Azərbaycan SSRİ Xalq rəssamı" fəxri adına layiq görülmüşdür.

Qəzənfər Xalıqov 1981-ci ildə vəfat etmişdir.

Hal-hazırda Qəzənfər Xalıqovun 17 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Ələkbər Rzaquliyev

Rzaquliyev Ələkbər Ələsgər oğlu 31 yanvar 1903-cü ildə Bakıda anadan olmuşdur. O, 1918-ci ildə İ.İ.Edel və M.N Gerasimovun emalatxasında dərs almış, 1925-ci ildə Moskvada Vhutemasda (Высшие художественно-технические мастерские, Ali ressamlıq texniki emalatxanalar) təhsilini davam etdirmişdir.

Rəssam yaradıcılığının erkən dövründə inqilabdan əvvəlki Azərbaycan məişətinin xarakterik səhnələri təsvir olunan boyakarlıq əsərləri çəkmişdir. Buna nümunə kimi “Azərbaycanlı qadın” (1926) , “Pəhləvanlar” ( 1926), “Mollaxana” (1927) kimi əsərlərini göstərmək olar.

Ələkbər Rzaquliyev qrafika sahəsində daha geniş fəaliyyət göstərmişdir. O, “Köhnə Bakı” silsiləsini (1958–1972), “M.Ə.Sabir” (1963), “Bakılılar Berlində” (1968), V.İ.Lenin və Azərbaycan rəhbərləri” (1970), “Çaybecərənlər” (1972), “Azərbaycan madonnası” (1973) və s. linoqravüralarını işləmişdir. Onun yaradıcılığında xalq adət və ənənələri, milli mərasimlər mühüm yer tutmuşdur.

Görkəmli rəssamın əsərləri Şərq Xalqları İncəsənəti Muzeyi (Moskva), R. Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və digər muzeylərdə saxlanılır.

Ələkbər Rzaquliyev 1964-cü ildə Azərbaycan "Əməkdar rəssamı" adına layiq görülmüşdür.

Rəssam 31 yanvar 1974-cü ildə Bakıda vəfat etmişdir.

Hal-hazırda Ələkbər Rzaquliyevin 99 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Bədurə Əfqanlı

Bədurə Məlik qızı Əfqanlı 25 oktyabr 1912-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1925-1929-cu illərdə Bakı Pedaqoji Texnikumunda oxumuşdur. Bədurə Əfqanlı azərbaycanlı ilk qadın teatr rəssamı kimi çalışmışdır. Onun diplom işinin mövzusu V.Şekspirin “Otello” faciəsindən götürülmüşdür.

Bədurə Əfqanlı 1934-cü ildə “Natsmen” teatrında quruluşçu rəssam işləməyə başlamış və bəzi tamaşaların bədii tərtibatını vermişdir. Bunlara misal olaraq H.Cavidin “Şeyx Sənan” faciəsini, Z.Hacıbəyovun “Aşıq Qərib” operasını, C.Cabbarlının “1905-ci ildə”, “Sevil” pyeslərini və s. göstərmək olar.

O, 1935-ci ildə İncəsənət İşləri Komitəsində tərtibatçı rəssam kimi işləmiş, mədəniyyət sarayları və klublar üçün teatr eskizləri çəkmişdir. Eskizlərini verdiyi komediyalar içərisində Ü.Hacıbəylinin “Arşın mal alan” komediyası xüsusi yer tutur.

B.Əfqanlı 1938-1939-cu illərdə Azərbaycan Dövlət Dram Teatrında çalışmışdır. O, Onore de Balzakın “Ögey ana” və C.Cabbarlının “Sevil”

əsərlərinin tamaşasının hazırlanmasında fəaliyyət göstərən ressamlardan biri olmuşdur. Burada Cəfər Cabbarlının “Aydın”, Məmmədhüseyn Təhmasibin “Bahar” (1940), “Aslan yatağı”, Mirzə Ibrahimovun “Məhəbbət” (1942), Zeynal Xəlilin “Qatır Məmməd”, Səməd Vurğunun “İnsan” (1945), Leonid Malyuginin “Köhnə dostlar”, İlyas Əfəndiyevin “İşıqlı yollar” (1947), “Bahar suları” (1948), Cəfər Cabbarlının “Solğun çiçəklər”, Tur qardaşlarının “Bir evin sirri”, Lope de Veqanın “Rəqs müəllimi” (1949), Aleksandr Şirvanzadənin “Namus” (1952) tamaşalarına geyim eskizləri çəkmişdir.

B.Əfqanlı müharibə illərində teatr-dekorasiyasında Sarıvəllinin “Babək”, Z.Xəlilin “Qatır Məmməd”, C.Cabbarlının “1905-ci ildə”, M.Təhmasibin “Aslan yataqı” pyesləri üzərində işləmişdir. Rəssamın müharibə dövründə axırıncı işi M.Hüseyn və İ.Əfəndiyevin “İntizar” pyesidir.

Rəssamın bir çox əsəri Azərbaycan Dövlət Teatr Muzeyi və A.A.Baxruşin adına Rusiya Mərkəzi Teatr Muzeyində (Moskva) saxlanılır.

O, “Əməkdar İncəsənət Xadimi” (1949), “Xalq rəssamı” (1974) fəxri adlarına layiq görülmüşdür.

Bədurə Əfqanlı 7 may 2002-ci ildə Baki şəhərində vəfat etmişdir.

Hal-hazırda Bədurə Əfqanlının 110 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Kazım Kazımzadə

Kazımzadə Kazım Məmmədəli oğlu 10 avqust 1913-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1936-cı ildə Azərbaycan Rəssamlıq Texnikumunu, 1960-cı ildə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdir.

Rəssam kitab qrafikası sahəsində fəalliyət göstərmişdir. Onun Mirzə Ələkbər Sabirin şeirlərinə çəkdiyi rəsmlər “İnqilab və mədəniyyət” jurnalında (1935), “Əlibaba  və qırx quldur” nağılına çəkdiyi illustrasiyalar “Pioner” jurnalında (1937) çap olunmuşdur .1936-cı ildə “Kənd motivi” mövzusunda diplom işi müdafiə etmişdir.

Nizaminin "İsgəndərnamə" ("İqbalnamə"), "Sirlər xəzinəsi" (1940), "Leyli və Məcnun" (1947), "Xosrov və Şirin" (1948) poemalarına, eləcə də uşaqlar üçün işlənmiş "Fitnə", "Sehrli üzük", "İsgəndər və çoban" kitablarına illüstrasiyalar çəkmişdir.

Kino sahəsində K.Kazımzadə “Qanun naminə”, “Bir qalanın sirri”, “Səmt küləyi”, “İliç buxtası”,

“Koroğlu”, “Əhməd haradadır?”, “”Qanlı zəmi, Üzeyir Hacıbəylinin “Uzun ömrün akkordları” filminin geyim eskizini vermişdir.

Rəssam həmçinin el sənəti ilə bağlı olan “Ənuşirəvan və bayquşların söhbəti” (L.Kərimovla birlikdə) xalçasının və 1949-cu ildə bir neçə müəllif ilə birlikdə böyük bədii xalça üzərində işləmişdir.

Rəssamın yaradıcılığında sovet dövrünə xas olan siyasi plakat və karikaturalar mühüm yer tutmuşdur. 1952-ci ildən "Kirpi" jurnalı ilə əməkdaşlığa başlamış, həmçinin tarixi-inqilabi və məişət mövzularında rəsm silsilələri ("Bakıda inqilabi-tarixi hadisələr", “Tibb işçiləri”, “İran silsiləsi”) və tablolar (“416-cı diviziya döyüşdə”, “Azad Kubada”, “İraq lövhələri” və s.) yaratmışdır.

Kazım Kazımzadə 1943-cü ildə “Əməkdar İncəsənət Xadimi”, 1965-ci ildə “Azərbaycan SSRİ Xalq rəssamı” adına layiq görülmüşdür. Stalin mükafatı (1950), SSRİ Dövlət mükafatı (1950) və “Qırmızı Əmək Bayrağı” ordeni laureatı olmuşdur.

Kazım Kazımzadə 1992-ci il 4 oktyabr ayında Bakıda vəfat etmişdir.

Hal-hazırda Kazım Kazımzadənin 79 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Maral Rəhmanzadə

Rəhmanzadə Maral Yusif qızı 23 iyul 1916-cı ildə Mərdəkanda anadan olmuşdur. 7-ci sinfi bitirdikdən sonra Bakı İncəsənət Texnikumuna qəbul olundu. Texnikumu vaxtından əvvəl bitirib, bir necə istedadlı tələbə ilə birlikdə Moskvaya, məşhur V.İ Surikov adına İncəsənət İnstitutuna göndərilmişdi. Onun müəllimləri arasında Vladimir Favorski, Aleksey Kravçenko, Dmitri Moor (Orlov) və bu kimi böyük qrafika ustaları vardır.

Rəssamın Azərbaycan qadınlarına həsr edilmiş ilk diplom işi Surikov məktəbinin rektoru, məşhur rəssam və sənətşünas İqor Qrabar tərəfindən yüksək qiymətləndirilmişdir.

Maral Rəhmanzadənin bütün işləri sərt reallıq təşkil edir. İlk baxışdan onun qadınlara çox da yaxın olmayan mövzuda işlədiyi tablolarda müəllifin şəxsi iştirakı hiss edilir. 1947-ci ildə 10 lövhədən ibarət “Neft” adlanan linoqravürləri seriyası yaratmışdır.

Rəssamın “Neftin daşınması”, “Neftçilər tankerdə” (1956-57), “Rezervuar parkı”, “Yeddi gəmi adası”, “Günəş şüaları”, “Ərzaq gətiriblər”, “Fırtına

zamanı” (1950) və s. kimi qrafik miniatürləri energetikası və romantikası ilə digər rəsmlərindən fərqlənir.

Azərbaycan qadınlarına həsr olunmuş əsərlərini əsasən ağ qara linoqravür texnikasında işləmişdir. “Bizim qızlar”, “Üç çiçək”, “Odlar yurdunun qızları”, “Mənim bacılarım” seriyaları Maral Rəhmanzadə yaradıcılığında qeyri-adiliyi ilə seçilir. O, əsasən qadın obrazlarını tamamlamaq üçün onları milli geyimdə təsvir etmişdir. Buna misal olaraq “Məhsul yığımı”, “Üzüm yığımı” və s. əsərlərinin adlarını qeyd etmək olar.

Maral Rəhmanzadə yaradıcılığında Azərbaycan klassiklərinin əsərlərinə çəkdiyi illüstrasiyalar önəmli yer tutur. Cəfər Cabbarlının “Aydın”, “Oqtay Eloğlu”, “Sevil”, “Almas”, “Solğun çiçəklər” pyes və poemalarına illustrasiyalar çəkmişdir. O, 1956-cı ildə M.S.Ordubadinin “Qılınc və qələm” tarixi romanının kitab tərtibatını etmişdir .

Rəssam “Qırmızı Əmək Bayrağı”, “Şərəf nişanı”, Azərbaycanın “Şöhrət” ordenləri ilə təltif edilmişdir. 1964-cü ildə “Azərbaycan SSRİ Xalq rəssamı” adını almışdır.

Maral Rəhmanzadə 16 mart 2008–ci ildə Mərdəkan qəsəbəsində vəfat etmişdir.

Hal-hazırda Maral Rəhmanzadənin 144 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Nəcəfqulu İsmayılov

Nəcəfqulu Əbdülrəhim oğlu İsmayılov 15 mart 1923-cü ildə Bakı şəhərində anadan olmuşdur. O, 1936-1940-cı illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil almış və II Dünya müharibəsinin başlanması onun ali təhsilini davam etdirməsinə imkan verməmişdir.

Nəcəfqulu İsmayılov məharətli qrafika ustası kimi tanınmışdır. O, 1952-ci ildə "Kirpi" jurnalının baş rəssamı olmuş və 1979-cu ilə qədər burada çalışmışdır. Otuz ilə yaxın jurnalın baş rəssamı kimi minlərlə maraqlı karikaturalar, şarjlar və başqa qrafik əsərlər yaratmışdır. O, bu jurnal üçün rəsm və karikaturalar, plakatlar işləmiş, C. Məmmədquluzadənin hekayələrinə, M.Ə.Sabirin "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalar böyük maraqla qarşılanmışdır.

Nəcəfqulu İsmayılov dəzgah rəngkarlığı və qrafika sahəsində bir-birindən maraqlı əsərlər qalereyası yaratmışdır. Rəssamın yaradıcılığında portret janrı xüsusi yer tutur. Onun "Qubalı Fətəli xan",

“General H.Aslanov”, “Sara Aşurbəyli”, “Şair M.Ə.Möcüz”, “Yazıçı A.Şaiq”, “Ana”, “Yazıçı C.Məmmədquluzadə”, “Şair S.Vurğun” və digər portretləri buna misal ola bilər.

Nəcəfqulu İsmayılovun süjetli tablo və mənzərə janrında işlədiyi əsərləri sırasına “Nəsiminin edamı”, “Qrand-opera”, “İçərişəhərdə küçə”, “Səadət”, “Realist rəssam” və s. daxildir.

Nəcəfqulu İsmayılov Azərbaycanı gəzərək gördüyü neqativ hallara qarşı münasibətini “Qayğıkeş ferma müdiri”, “Əsl şərəf lövhəsi belə olar”, “Axır ki dil tapdıq”, “Sözsüz” və s. karikaturalarında satira hədəfinə çevirmişdir.

Rəssam “Kirpi” jurnalında çalışdığı illərdə çəkdiyi karikaturaların sözlərini də özü yazmışdır. O, bir çox sənət adamlarının portretlərini işləmiş, eyni zamanda onların dostluq şarjlarını da çəkmişdi. Tahir Salahov, Mikayıl Abdullayev, Fikrət Əmirov, Cəlal Qaryağdı, Bəşir Səfəroğlu və başqalarının portretləri dostluq şarjlarına misal ola bilər.

Rəssam 1963-cü ildə Azərbaycan “Əməkdar İncəsənət Xadimi” fəxri adını almışdır.

Nəcəfqulu İsmayılov 1990-cı ildə vəfat etmişdir.

Hal-hazırda Nəcəfqulu İsmayılovun 92 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Cəmil Müfidzadə

Cəmil Müfidzadə Miryusif oğlu 24 fevral 1934-cü ildə Naxçıvanın Ordubad rayonunda anadan olmuşdur. O, 1948-1955-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır. Rəssamın diplom işi "Ümumittifaq sərgisinə eksponatların yola salınması" adlı rəngkarlıq əsəri olmuşdur. O, daha sonra Ukranyada Kiyev orta Rəssamlıq Məktəbinin (1955-1956), Xarkov Dövlət Rəssamlıq İnistitutunun "Qrafika" fakültəsinin tələbəsi (1959-1962) olmuşdur. Cəmil Müfidzadənin növbəti diplom işi "Neft daşları" mövzusunda çəkdiyi rəngli ofortlar silsiləsidir.

C.Müfidzadə tələbəlik illərində həm Azərbaycan, həm də Ukranyada təşkil olunmuş müxtəlif sərgilərdə iştirak etmişdir.

Rəssam qrafika sənətinin fərqli texnikalarından yaradıcılığında istifadə etmişdir. Rəssam ksiloqrafiya texnikasında işlədiyi "Bakı albomu" (1962-1966), "Neft daşları" (1965), "Qala divarları" (1966) və s. əsərlərini qeyd etmək olar. Rəssamın yaradıcılığında "İçərişəhər" (1965-2000) silsiləsi xüsusi yer tutur.

Rəssamın qarışıq texnikada işlədiyi ilk dörd əsər 1967-ci ildə Bakıda təşkil olunan Respublika sərgisində “Azərbaycanın qədim memarlıq abidələri” adı ilə nümayiş olunmuşdur.

Cəmil Müfidzadənin qarışıq texnikada çəkdiyi “Abşeron nefti” silsiləsi 1967-1975-ci illəri əhatə edir. Bu silsiləyə rəssamın “Bakı-neft paytaxtıdır”, “Abşeron nefti”, “Çənlər parkı”, qarışıq texnikada isə “Neft ehramı”, “Neft saxlancı”, “Neft mədənlərində” əsərlərinin adlarını qeyd etmək olar.

Cəmil Müfidzadə Azərbaycanın unikal yaşayış məkanlarından Xınalığa həsr etdiyi (1980-1990) silsiləsi yaradıcılığında mühüm yer tutur.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında “Qrafika” kafedrasına rəhbərlik edən Cəmil Müfidzadə “Ofort” adlı dərsliyin müəllifidir.

Cəmil Müfidzadəyə Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətinə görə 1982-ci ildə “Əməkdar rəssam” , 2002-ci ildə isə “Xalq rəssamı” fəxri adları verilmişdir.

Hal-hazırda Cəmil Müfidzadənin 94 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Həyat Abdullayeva

Abdullayeva Həyat Həmdulla qızı 14 oktyabr 1912-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1950-ci ildə Repin adına Leninqrad Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun heykəltəraşlıq ixtisasını bitirmişdir. Diplom işi "İki Sosialist əmək qəhramanı Bəsti Bağırova pambıq yığımı zamanı" kompozisiyası olmuşdur. Diplom rəhbəri Viktor Aleksandiroviç Sinaysk olmuşdur.

Heykəltəraşlığın dəzgah və dekorativ formaları üzrə fəaliyyət göstərərək bir sıra qiymətli kompozisiya qrupları və kiçik ölçülü heykələr yaratmışdır. Həyat Abdullayevanın yaradıcığında lirik mövzular mühüm yer tuturdu.

Onun yaradıcılığında portret janrı da inkişaf etmişdir. "Qız portreti" (1966), "Vaqif" (1957), "Həcər" (1959), "Vəcihə Səmədova"nın (1960) kimi portretləri dövrünün müasir həyatını əks etdirir.

H.Abdullayeva 1956-1957-ci illərdə ardıcıl olaraq "Vaqif" (Şuşa şəhəri, Cıdır düzü) və "Nizami" portretlərini işləmişdir. Qaçaq Nəbinin həyat yoldaşı, "Həcərin portreti" kompozisiyası böyüklüyü və plastik bütövlüyü ilə fərqlənir.

1960-cı ildən sonra Həyat Abdullayeva qadın portretlərində səciyyəvi cizgilər, ifadəli, psixoloji cəhətdən zəngin obrazlar yaratmağa başlamışdır. Rəssamın fikirləri yaradıcılıq ideyaları Vəcihə Səmədovanın portretində xüsusilə aydın görünür.

H.Abdullayeva Bakı farfor zavodu üçün bir sıra kiçik heykələr yaratmışdır: Bunlar “Yeddi gözəl”, “Talış qız” əsəsrləridir. Gipsdən olan işlərindən isə “H.Zərdabi portreti” ( 1951 ), “Çay yığan qız” (1953), “Yaz” (1961) , “Kolxozçu qız” (1965) adlarını qeyd edə bilərik.

1964-cü ildə Azərbaycanın “Əməkdar rəssamı” adına layiq görülmüşdür.

Həyat Abdullayeva 2006-cı ildə Dərbənd şəhərində vəfat etmişdir.

Hal-hazırda Həyat Abdullayevanın 10 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Cəlal Qaryağdı



Qaryağdı Cəlal Məhərrəm oğlu 1914-cü il 22 fevralda Şuşa şəhərində anadan olmuşdur. O, 1928-1932-ci ildə Azərbaycan Rəssamlıq məktəbində və 1932-1935-ci ildə Tiflis Rəssamlıq Akademiyasında təhsil almışdır. Monumental-dekorativ heykəltəraşlıq onun yaradıcılığında əsas yer tutur. Müxtəlif janrlarda olan əsərləri obrazların yığcamlığı və milli koloriti ilə səciyyəvidir.

Cəlal Qaryağdı özünəməxsus dəsti-xəttə, üsluba malik olan, romantik ruhlu, ehtiraslı və cəsarətli plastik formalara meyl göstərən sənətkar olmuşdur. Heykəltəraş 1937-ci ildə Bakıya qayıtmış, elə bu ildən də müstəqil olaraq yaradıcılıq fəliyyətinə başlamışdır. Cəlal Qaryağdı bu illərdə yaratdığı M.Əzizbəyovun, İ.Fioletovun, A.Caparidzenin portretlərinə xarakterin sənədli təcəssümünü, quruluğunu və xarici oxşarlığını vermişdir. Bu dövrdə C.Qaryağdı barelyef sahəsində (A.S.Puşkinin, Ş. Rustavelinin barelyef portretləri) və fiqurlu plastika üzərində xeyli iş aparmışdır. Müharibə illərində çoxtirajlı qəzetdə hərbi rəssam işləyərkən etdiyi cəbhə qeydlərindən müharibədən sonrakı illərdə

portret janrı sahəsində işlərkən istifadə etmişdir. Həmin dövrlərdəki işlərində heykəltəraş barelyefə böyük diqqət yetirmişdir. O, Sovet İttifaqı Qəhrəmanı “İsrafil Məmmədova” həsr olunmuş ölçüsünə görə böyük olmayan monumental “Bizim dövrün Koroğlusu” barelyefini yaratmışdır.

Heykəltəraş Sovet İttifaqı Qəhrəmanları A.Quliyevin Büsütun (1945) və İ.Məmmədovun (1944), Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasının motivləri əsasında “Fərhad Bisütun dağını yayarkən” barelyefi (1947), Sovet İttifaqı Qəhrəmanı H.Aslanov (1948-1949, ikinci variantı 1961), Xurşidbanu Natəvanın (1949), M. Ə. Sabirin (1962), Q. Qarayevin (1963), Fikrət Əmirovun (1964), Niyazinin büst portretlərini düzəltmişdir.

Bakıda N. Nərimanovun (1966-1968, 1972-ci ildə açlışı olmuşdur), M. Ə. Sabirin (1958), S. Vurğun (1966, Qazax) heykəllərinin müəlifidir.

Cəlal Qaryağdı 1954–cü ildə “Azərbaycan SSR Əməkdar İncəsənət Xadimı”, 1960-cı ildə isə “Xalq rəssamı” fəxri adlarına layiq görülmüşdür.

Cəlal Qaryağdı 2001-ci ildə Bakı şəhərində vəfat etmişdir. Fəxri xiyabanda dəfn olunmuşdur.

Hal-hazırda Cəlal Qaryağdının 6 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Fuad Əbdürrəhmanov

Əbdürrəhmanov Fuad Həsən oğlu 11 may 1915-ci il Nuxada (indiki Şəki şəhəri) anadan olmuşdur. O, 1929-1932-ci illərdə Azərbaycan Rəssamlıq Məktəbi və 1935-1939-cu illərdə isə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır. Fuad Əbdürrəhmanov 1942–1948-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs demişdir.

Heykəltəraş yaradıcılığa portret janrı ilə başlamışdir. O, 1930-cu illərdə Azərbaycan mədəniyyət xadimləri Əbdürrəhimbəy Haqverdiyev, Mirzə Fətəli Axundov, Üzeyir Hacıbəylinin, Asəf Zeynallı və s. büst-portretlərini işləmişdir.

Fuad Əbdürrəhmanov 1950-ci illərdə dəzgah heykəltəraşlığı ilə məşğul olmuş, psixoloji portretlər işləmişdir. Səttar Bəhlulzadə (1947), R.Mustafayev (1947), H.Aslanov (qəbirüstü abidə,1949), B.Bağırova (1951), S.Vurğun (1957), kubalı Xesus (1962) və başqalarının portretlərində, obrazların fərdi xüsusiyyətini, xarakterlərini aydın ifadə edə bilmişdir.

Fuad Əbdürrəhmanovun yaradıcılığında monumental heykəltəraşlıq mühüm yer tutmuşdur.

Heykəltəraşın işlədiyi Nizaminin Gəncədə və Bakıdakı abidələri (1946, 1949), Bakıda S.Vurğunun abidəsi (1961) Azərbaycan monumental heykəltəraşlığının ən yaxşı nümunələrindəndir.

Fuad Əbdürrəhmanova Monqolustanın görkəmli dövlət xadimləri Suxe-Bator və marşal X.Çoybalsanın büst-abidələri (1954), Rudəki (1963), S.Ayninin portretləri (1964), Düşənbədə Rudəkinin (1964), Buxarada İbn Sinanın abidələri (açılışı 1975 ildə olmuşdur) monumental əsərləri şöhrət qazandırmışdır.

Fuad Əbdürrəhmanov 1943-cü ildə “Azərbaycanın Əməkdar Rəssamı”, 1956-ci ildə “Azərbaycan Xalq rəssamı” adını almışdır. Heykəltəraş 1949-cu ildə SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, 1947-1951-ci ilərdə “Azərbaycan Dövlət mükafat laureatı” olmuşdur

O, iki dəfə "Şərəf nişanı" ilə təltif olunmuşdur. Bakıda Fuad Əbdürrəhmanovun ev muzeyi fəaliyyət göstərir.

Fuad Əbdürrəhmanov 1971-ci il iyunun 15-də Bakı şəhərində vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Hal-hazırda Fuad Əbdürrəhmanovun 7 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Mirəli Mirqasımov

Mirələsgər Mirəsədulla oğlu Mirqasımov 9 fevral 1924-cü ildə Bakı şəhərində anadan olmuşdur. O, 1944-cü ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmişdir. Mirəli Mirqasımov 1950-ci ildə İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirdikdən sonra İ.Q.Perşudçevin emalatxanasında çalışmışdır.

Heykəltəraşın tələbəlik illərində çəkdiyi əsərlər arasına "Oğlan portreti" (1947), "M.Ə.Sabirin portreti" (1948) daxil idi. Mirəli Mirqasımov müharibədən sonrakı illərdə vətənin müdafiəçilərinə həsr olunmuş bir sıra əsərlər işləmişdir. Onun belə əsərlərdən biri 1954-cü ildə işlədiyi "Sovet İttifaqı Qəhrəmanı Rauf Məmmədov"un portretidir.

Mirəli Mirqasımovun yaradıcılığında yer tutan əsərlərindən iki "Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırova"nın büstüdür (1950). Onun işlədiyi "V.İ. Leninin portreti" və "Bəsti Bağırova"nın büstü 1957-ci ildə respublika yubiley sərgisində nümayiş etdirilmişdir.

Rəssamın heykəl-portretlərindən (1954) “Qız portreti”, “Nana” (1956), “Ana” (1963) M.Mirqasımovun atası (1963), “Musa Babayevin” portreti (1951), “Neftçi” portreti (1964) əsərlərini qeyd etmək olar. O, 1954-cü ildə “Qız göyərçin ilə portreti” Varşavada nümayiş etdirilmiş və onun müəllifi V Ümumdünya gənclər festivalı laureatı adına layiq görülmüşdür.

Heykəltəraşın digər əsərləri sırasına “Mirzə Ələkbər Sabir”in büstü (1947, Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır), “Uxuru” heykəli (“Azadlıq”, 1961, Azərbaycan Dövlət Rəsm Qalereyasında), “Xəzri” (1970, Azərbaycan Dövlət Rəsm Qalereyasında) kimi adları qeyd etmək olar.

Heykəltaraş 1960-cı ilin axırlarından başlayaraq monumental abidələr üzərində işləməyə başlamışdır. Onun monumental işlərindən “Lenin”in (1957), “Cəlil Məmmədquluzadə”nin (1974, Naxçıvan), “Cəfər Cabbarlı”nın (1982, Bakı) abidələri, “Nəriman Nərimanov”un büstü (1964, Sumqayıtda) adlarını çəkmək olar.

Heykəltəraş Azərbaycanın “Əməkdar İncəsənət Xadimi” (1962), “Xalq rəssamı” (1982) adlarına layiq görülmüşdür.

Mirəli Mirqasımov 2003-cü ildə vəfat etmişdir.

Hal-hazırda Mirəli Mirqasımovun 12 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Ömər Eldarov

Eldarov Ömər Həsən oğlu 21 dekabr 1927-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1941-1945-ci illərdə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil almışdır. 1951-ci ildə İ.E.Repin adına Sankt-Peterburq Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda, Matveyevin sinfini bitirmişdir. 1953-cü ildən Ömər Eldarov SSRİ Rəssamlar İttifaqının üzvüdür.

Ömər Eldarovun yaradıcılığı Azərbaycan monumental heykəltəraşlığının inkişafında mühüm yer tutur. Sənətkarın əsərləri respublikamızın və bir sıra xarici dövlətlərin şəhərlərini bəzəyir. Bu cür əsərlər sırasında “Zoya Kosmodemyanskaya” (1951-54), “Natəvan” (1960, Bakı), “Hüseyn Cavid” (1993, Bakı) və başqa abidələrin adlarını çəkmək olar. 1962-ci ildə Ömər Eldarovun Tokay Məmmədov ilə birlikdə bitirdiyi və Milli Dram Teatrının binası qarşısında ucaldılmış Füzulinin abidəsi, keçmiş Sovet monumental heykəltəraşlığının xüsusilə də şərq monumental sənətinin böyuk nəalliyyətidir. Müəlliflər məhz xalq təsəvvüründəki Fizuli obrazını realistik cizgilərlə,

yaratmağa müvəffəq olmuşlar. Elə bu naliyyətinə görə də həmmüəlliflər SSRİ Rəssamlıq Akademiyasının gümüş medalı ilə mükafatlandırılmışlar.

Heykəltəraşın, Çaparidze(1980), 72 –ci diviziyanın azərbaycanlı əsgərlərə həsr olunmuş "Azərbaycanın qorxmaz oğul və qızlarının – Sapun-Dağa hücumu iştirakçılar"ının(1974, Sevastopol) memorial xatirə abidələri böyük şöhrət qazanmışdır. 1979-ci ildə Düşənbə şəhərində Sədrəddin Ayninin xatirəsinə ucaldılan abidəyə görə Ö.Eldarov "SSRİ Dövlət Mükafatı"na layiq görülmüşdür.

Heykəltaraş Zərifə Əliyevanın obrazı olan "Elegiya" əsərini (1998) yüksək ustalıqla yaratmışdır. Obrazda romantizm və yüksək mənəvi keyfiyyətləri bir arada cəmlənmişdir.

Ümummilli lider Heydər Əliyevin obrazı Ömər Eldarovun yaradıcılığında önəmli yer tutur. Heydər Əliyev ikinci dəfə Sosiolist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif olunduqdan sonra, 1987-ci ildə Ömər Eldarov Naxçıvan şəhərində onun büstünü ucaltmışdır. Bu portret bir başa canlı naturadan işlənmişdir. Ömər Eldarov H.Əliyevin vəfatından sonra ucaldılmış bir neçə xatirə abidəsinin müəllifidir. Bunlardan fəxri xiyabandakı qəbrüstü abidəsi (2004), Ali Hərbi Məktəbin qarşısında ucadılmış general geymindəki monumentini xüsusilə qeyd etmək lazımdır. Heydər Əliyevin daha bir xatirə abidəsi 2001-ci ildə Qars şəhərində qoyulmuşdur.

Eyni zamanda sənətkar bir sıra kamera xarakterli, kiçik həcmli əsərlərin müəllifidir. Bu qəbildən “Qızım Lalənin portreti”, “Oğlum Müslümün portreti”, “Analıq”, yazıçı “Rabindranat Taqor”un heykəl portretləri müxtəlif vaxtlarda nüfuzlu respublika və beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilmişdir.

Onun yaratdığı heykəllər dünyanın bir çox muzeylərində layiqli yer tutmaqdadır. O, 1962-ci ildə “Əməkdar rəssam” adına layiq görülmüşdür. 1967-ci ildə SSRİ Rəssamlar Akademiyasının müxbir üzvü, 1988-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının akademikidir. Azərbaycan Respublikasının “Xalq rəssamı” (1982), Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının ilk rektorudur. “Fəxri nişan” , “İstiqlal” (1997) , “Qırmızı əmək bayrağı”(1986) ordeni və Rusiya Rəssamlıq Akademiyasının medalı (1988) ilə təltif olunmuşdur.

Ö.Eldarovun yaratdığı dahi Azərbaycan dirijoru və bəstəkarı Niyazinin monumental heykəli özünün unikallığı və portretin dərin psixologizmi ilə seçilir.

Hal-hazırda Ömər Eldarovun 13 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



### Tokay Məmmədov

Məmmədov Tokay Həbib oğlu 1927-ci ilin iyulun 18-də Bakı şəhərində anadan olmuşdur. O, 1942-ci ildə Bakı Rəssamlıq Məktəbinə daxil olmuş və ilk milli heykəltəraşımız Fuad Əbdürrəhmanovdan sənətin sirrlərini öyrənmişdir.

Tokay Məmmədov 1945-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin üçüncü kursunu bitirdikdən sonra, İ.E.Repin adına Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnistitutunun “Heykəltəraşlıq” fakültəsinə qəbul olmuşdur. O, burada görkəmli rus sənətkarları V.Senayski, A.Matveyev və M.Kerezindən dərs almışdır. Heykəltəraş ali təhsil aldığı dövrdə, yəni 1947-ci ildə Azərbaycanın xalçaçı rəssamı Lətif Kərimovun portret büstünü hazırlamışdır. Tokay Məmmədov 1948-ci ildə Moskvada təşkil edilmiş sərgidə rus şərqşünaslığının banisi, Mirzə Kazımbəyin portretini nümayiş etdirmişdir. Tokay Məmmədovun 1951-ci ildə ali təhsilini başa vuran yaratdığı diplom işi "26 Bakı Komissarları"na həsr edilmişdir.

Tokay Məmmədov ali təhsilini bitirdikdən sonra Leninqrad şəhərində heykəltəraş kimi işə başlayır və Leninqrad Rəssamlar İttifaqının üzvü seçilir. Heykəltəraş Bakıya qayıtdıqdan sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətə başlamışdır. Tokay Məmmədov bir çox şairlərin, alimlərin, sadə əmək adamlarının, dövlət xadimlərinin və öz sənət dostlarının büst portretlərini yaratmışdır. O, 1953-cü ildə ilk dəfə ağacdan Azərbaycanın klassik şairi Nizami Gəncəvinin portretini yonmuşdur. Heykəltəraşın yaratdığı "Nizami Gəncəvi" portreti 1955-ci ildə Varşavada Gənclərin Beynəlxaq Ümumdünya sərgisində nümayiş etdirilmişdir. Azərbaycan heykəltəraşlığında ağac materialdan ilk dəfə olaraq Tokay Məmmədov istifadə etmişdir. O, müxtəlif illərdə ağac materialdan bir çox şairlərin, dövlət xadimlərinin və sadə əmək adamlarının portretlərini yaradır. Bu qəbildən onun "Səməd Vurğun", Xalq rəssamı "Qəzənfər Xalıqov", dövlət xadimi, həkim və yazıçı "Nəriman Nərimanov", sadə iş adamı "Şirəli Müslümov" və b. portretlərini qeyd etmək olar. Heykəltəraş həmçinin mərmər, tunc, gips materiallardan portret işləmişdir. Bu nümunə kimi Üzeyir Hacıbəyov, Rüstəm Mustafayev, Vəcihə Səmədova, Süleyman Rəhimov, F.Şopen və V.A.Motsartın büst portretlərini qeyd etmək olar.

Heykəltəraşın yaradıcılığı monumental heykəllərlə zəngindir. Tokay Məmmədovun monumental obrazları Azərbaycanın şairləri, alimləri,

dövlət xadimləri və qəhrəmanlarının surətlərini yaşadır. Tokay Məmmədovun Bakıda  ucaldılan bəstəkar Üzeyir Hacıbəyov (1960). (Azərbaycan Dövlət Musiqi Akademiyasının binası qarşısı), Məşədi Əzizbəyov (1976) monumental heykələrinin adlarını çəkmək olar.

Osnun monumental heykəlləri yaradıcılığına Azərbaycan şairi "İmaməddin Nəsimi" və "XI qızıl Ordu" (indiki “20 yanvar” meydanında  yerləşirdi) abidələrini də əlavə etmək olar.

Tokay Məmmədov bir neçə qəbirüstü abidənin də müəllifidir. O, Mir Möhsün Nəvvab (1956-cı il, Şuşa), Bülbülün qəbirüstü abidələri üzərində işləmişdir. Heykəltəraş 2012-ci ildə Bakı şəhərində ucaldılmış Koroğlu abidəsinin müəllifidir.

Tokay Məmmədov 1962-ci ildə “Əməkdar İncəsənət Xadimi”, 1973-cü ildə isə “Xalq rəssamı” fəxri adına layiq görülmüşdür. O, 1975-ci ildə SSRİ Rəssamlar Akademiyasının müxbir üzvü seçilmiş, 1963-ci ildə Bakı şəhərində (Ö.Eldarovla birlikdə) yaratdığı M.Füzulinin abidəsinə görə SSRİ Rəssamlar Akademiyasının gümüş medalı ilə mükafatlandırılmışdır. Tokay Məmmədov yaratdığı işlərə görə 1978-ci ildə “SSRİ Dövlət Mükafatı”, 1982-ci ildə isə “Azərbaycan Dövlət Mükafatı”na layiq görülmüş həmçinin "Şərəf nişanı", "Xalqlar dostluğu", "Şöhrət" ordenləri ilə təltif olunmuşdur.

Hal-hazırda Tokay Məmmədovun 19 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Münəvvər Rzayeva



Rzayeva Münəvvər Məcid qızı 6 iyun 1929-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, 1946-1950-ci illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Texnikumunda, 1950-1956-cı illərdə Moskvada Surikov adına Rəssamlıq Akademiyasında (N.V.Tomskinin sinifində) təhsil almışdır. Rəssam 1958-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. Münəvvər Rzayeva Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü, Nizami adına Ədəbiyyat muzeyində bərpaçı heykəltaraş-rəssam kimi də fəaliyyət göstərmişdir.

O, əsasən psixoloji portret ustası kimi tanınır. Münəvvər Rzayeva heykəllərini əsasən qranit, mərmər, bürünc və ağac materiallarından hazırlamışdır.

O, əsasən sənət adamlarının, dövlət xadimlərinin və əmək qəhrəmanlarının heykəl, büst barelyeflərini işləmişdir. Münəvvər Rzayevanın heykəllərində hər bir detal obrazın ümumi ideyasının açılmasında mühüm rol oynayır. Onun işlədiyi Nigar Rəfibəylinin (Gəncə, bürünc, 1998, Fəxrəddin Əliyevlə birgə), Sergey Yeseninin (Mərdəkandakı muzeyində),

Məhsəti Gəncəvinin (Ədəbiyyat muzeyində) heykəlləri öz emosionallığı ilə fərqlənir.

Münəvvər Rzayev Bakıda və Azərbaycanın digər bölgələrində qoyulmuş yüzə yaxın heykəlin müəllifidir. Bakıdakı heykəllərdən Sevil Qazıyevın barelyefini (bürünc, 1969), Mikayıl Müşfiqin (qırmızı qranit, 1970), Yeseninin (1977), Ayna Sultanovanın (1986), Nizami adına Ədəbiyyat muzeyində Bəhmənyarın (mərmər), Nəsiminin (ağac) heykəllərini qeyd etmək olar. Gəncə şəhərində ucaldılmış Məhsəti Gəncəvi (bürünc 5 m, 1983) monumenti bütün bu xüsusiyyətləri özündə daşıyır. O, Xızıda Mikayıl Müşfiqin (bürünc, 1989, F.Əliyevlə birgə) heykəllərini işləmişdir.

Münəvvər Rzayevanın sonuncu işlərindən biri Qusar rayonunda yerləşən dağın 3763 m hündürlüyündəki “Heydər Zirvəsi”nə bərkidilən Heydər Əliyevin tunc barelyefi olmuşdur (barelyefin uzunluğu 82 sm, eni 59 sm).

Münəvvər Rzayeva 6 iyun 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Münəvvər Rzayevanın 7 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Elmira Hüseynova

Hüseynova Elmira Mehrəli qızı 12 fevral 1933-cü ildə Bakı şəhərində anadan olmuşdur. O, Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini (1954) və İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu (1960) bitirmişdir.

Elmira Hüseynovanın yaradıcılığında ailə, sevgi, səadət mövzuları xüsusi yer tutur. Heykəltəraşın müraciət etdiyi mövzulardan biri də ana mövzusudur. Rəssamın müxtəlif materiallarda işlədiyi “Ailə”, “Analıq”, “Mənim ailəm”, “Xoşbəxtlik” əsərlərinin adlarını qeyd etmək olar.

Rəssamın “Kolxozçu qadın”, “Fəhlə”, “Ailə”, “C.Cabbarlı”, “Ana”, “Rəsul Rza” və s. kimi əsərləri plastik formalarının yığcamlığı və kompozisiyaların orijinallığı ilə fərqlənir. Elmira Hüseynova monumental heykəllərindən olan “C.Cabbarlı” (Sumqayıt, 1966), “H.Zərdabi” (Bakı, 1983) əsərlərinin adlarını qeyd etmək olar.

Elmira Hüseynova Toğrul Nərimanbəyov, Rəsul Rza, Tələbə və s. obrazların portretlərini ağacdan məharətlə yonmuşdur.

Azərbaycan heykəltəraşlığında ilk dəfə olaraq Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rza (1970) və pambıq ustası, Sosialist Əməyi Qəhrəmanı Qüdrət Səmədovun (1972) portret kompozisiyalarına bu obrazları zənginləşdirən, onların daxili aləmini aşkarlayan məntiqi atributlar daxil etmişdir.

O, 1965-ci ildə "Səttar Bəhlulzadənin" portretini yaradır. E.Hüseynova S. Bəhlulzadənin varlığına xas olan bütövlüyü, qətiyyəti və şərtiliyi ön plana çəkmişdir.

Elmira Hüseynovanın daha çox diqqəti özünə cəlb edən əsərlərindən biri "Həsənbəy Zərdabinin" abidəsi olmuşdur. Bu əsər sənətkarın son işlərindən sayılır. Tunc abidə memar Z.Quliyevanın layihəsi əsasında İçərişəhərdə qoyulmuşdur.

Elmira Hüseynova 1967-ci ildə Azərbaycan Respublikasının "Əməkdar İncəsənət Xadimi" adına layiq görülmüşdür.

O, 23 yanvar 1995-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Elmira Hüseynovanın 8 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

## Fazil Nəcəfov



Nəcəfov Fazil İmamverdi oğlu 16 fevaral 1935-ci ildə Bakıda anadan olmuşdur. O, 1955-ci ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini bitirmiş, elə burada Fuad Əbdürrəhmanov və Səlim Quliyev kimi sənətkarlardan heykəltəraşlıq dərsi almışdır. Fazil Nəcəfov 1961-ci ildə V.İ Surikov adına Moskva Ali Rəssamlıq İnstitutunu (H.V.Tomskinin emalatxanasını) bitirmişdir. O, 1960-cı illərin əvvəllərində "İzahat" adlı heykəl kompozisiyası, daha sonra isə "Neftçi" əsəri ilə sərgilərdə iştirak etmişdir.

O, "Gənc qız", "Rayanın portreti" (1961) kimi büstlərinin və "Neftçi" (1963), "Dalğıc" kimi əsərlərin müəllifdir. Heykəltəraşın "Osvensim" (1965) adlı heykəl- kompozisiyası "Sülhün keşiyində" adlı sərgidə müvəffəqiyyət qazanmışdır.

Fazil Nəcəfov "İçəri şəhər qadınları", "Ana", "Korların nəğməsi", "Teatr", "H.B.Vəzirov", "Səhər", "Həyatın mərtəbələri", "Zamanın oyunları", "Fortuna", "Qulyabani", "Qoca", "Qız", "Gənc qadın", "Çılpaq

qadın", "Qadın", "Oturmuş qadın" kimi əsərlərin müəllifidir.

Fazil Nəcəfov 2002-ci ildə Azərbaycan “Xalq rəssamı” fəxri adına, Prezident təqaüdünə və digər yüksək mükafatlara layiq görülmüşdür.

Heykəltəraş son işlərindən biri də 2014-cü ildə “Qara Qarayev”in heykəlidir.

Hal-hazırda Fazil Nəcəfovun 13 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Arif Qazıyev

Qazıyev Arif Şamil oğlu 2 yanvar 1937-ci ildə İrəvan şəhərində anadan olmuşdur. O, 1965-ci ildə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirmişdir. Rəssamın diplom işi 1958-ci ildə işlədiyi "İstirahət" adlı əsəridir. Heykəltəraş 1965-ci ildən respublika və beynəlxalq qrup sərgilərinin fəal iştirakçısıdır.

Arif Qazıyev "Babək", "Atropat", "Atatürk", "Tarla gözəli", "XX əsr", "Haçan qaldıracağam", "Dəhşət", "Oyanış", "Bumeranq", "Gülüstan" (1980) adlı əsərlərin müəllifidir.

Heykəltəraş eləcədə, Azərbaycanın tarixi şəxsiyyətlərinin "Heydər Əliyev", "Zivərbəy Əhmədbəyovun", "Məlik Məhərrəmovun" heykəlini yaratmışdır.

O, Bakı Ceyhan neft kəməri layihəsinə abidə hazırlamışdır.

Arif Qazıyev 1967-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Heykəltəraş 1981-2000-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində baş müəllim, 2002-ci ildən Azərbaycan

Dövlət Rəssamlıq Akademiyasında dosent, 2015-ci ildən isə professor kimi fəaliyyət göstərir.

Arif Qazıyev 2002-ci ildə Azərbaycanın "Əməkdar rəssamı" fəxri adına layiq görülmüşdür. Heykəltəraşın əsərləri Azərbaycan, Moskva, Gürcüstan, Almaniya, Türkiyə və başqa ölkərdə nümayiş olunmuşdur

Hal- hazırda Arif Qazıyevin 12 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Sabir Şıxlı

Şıxlı Sabir Məmməd oğlu 10 noyabr 1927-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. O, 1950-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1955-ci ildə isə Moskva Toxuculuq İnstitutunun "Rəssamlıq" fakültəsini bitirmişdir. Sabir Şıxlı 1955-1959-cu illərdə Şəki İpək Kombinatının İstehsalat Birliyində məsləhətçi baş rəssam-texnoloq kimi çalışmışdır. Rəssamın 1958-ci ildə Brüsseldə açılan sərgisində milli koloritdə olan "Labada" üst geyimi, o cümlədən M.P.Vaqifin 250 illiyinə həsr olunmuş kompozisiyaları nümayiş edilmişdir.

Sabir Şıxlı 1953-1963-cü illərdə "Azərbaycanfilm" kinostudiyasında dekorator işləmişdir. O, "Böyük dayaq", "Səhər " filmlərinin dekorator-rəssamı olmuşdur.

Sabir Şıxlı 1960-cı ildən SSRİ Rəssamlar İttifaqının üzvüdür. O, 1959-1960-cı illərdə Azərbaycan Dövlət İncəsənət Muzeyində böyuk həcmli ipək parça üçün eskiz "Güllər", rəssamlar fondunda "Durnalar

süfrəsi”, “Durnalar rəqs edirlər” kompozisiyalarını sərgiləmişdir.

Rəssam Bakı şəhər sirkinin interyerində olan bədii dekorativ-monumental əsərlərin, bir sıra şəhər və rayonlarda olan (Naxçıvanda çekanka üslubunda “Üzüm yığanlar”, Göyçayda mədəniyyət evində “Zəhmət adamları” mozaikasının və Bakıda yerləşən şadlıq sarayında dekorativ monumental bədii nəqqaşlıq mövzusunda “Toy”) kompozisiyaların müəllifidir.

Sabir Şıxlı 1960-1965-ci illərdə “Göyərçin” jurnalında rəssam kimi fəaliyyət göstərmişdir. Rəssam 1963-1998-ci illər ərzində Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinin bədii-toxuculuq və bədii-nəqqaşlıq fakültəsində baş müəllim işləmişdir. O, 1982-ci ildə “Azərbaycan SSRİ Ali Soveti”nin fəxri fərmanı ilə, 1975-ci ildə “Əməkdə Fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur.

Sabir Şıxlı 2004-cü ildə Bakıda vəfat etmişdir.

Hal-hazırda Sabir Şıxlının 1 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Sima Ağayeva

Ağayeva Sima Abbas qızı 15 mart 1932-ci ildə Gürcüstanın Axalsix şəhərində anadan olmuşdur. O, 1957-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, 1964-cü ildə Tbilisi Rəssamlıq Akademiyasının "Keramika" fakültəsini bitirmişdir. Rəssam 1967-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. O, 1964-cü ildən Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Rəsam, heykəltaraşlıq və boyakarlıq" kafedrasında dosent işləmişdir. Sima Ağayeva 2006-cı ildə Təsviri sənətin inkişafındakı xidmətlərinə görə Azərbaycanın Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür. O, respublika və beynəlxalq sərgiləri dövrü mətbuatda işıqlandırılması sahəsində fəal iştirak etmişdir.

Hal-hazırda Ağayeva Simanın 1 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Ədhəm Yusubov

Yusubov Ədhəm Süleyman oğlu 31 dekabr 1939-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, 1963-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin "Rəngkarlıq" fakültəsini və 1969-cu ildə M.A.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun keramika ixtisasını bitirmişdi. O, 1970-1982-ci illər ərzində Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində ixtisas fənləri üzrə müəllim vəzifəsində çalışmışdır.

Onun 20 yanvar hadisələrinə həsr etdiyi "Axın" (1992), "Partlayış" ,"Pəncərə", (1993), "Xronika" (1995), "Zaman" (1998), "Siluet" (2001) əsərləri vardır.

O, 1976-1982-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının VI və VII qurultaylarında "Dekorativ-tətbiqi sənət" bölməsinin sədri, idarə və rəyasət heyətinə, Respublika, ümumittifaq sərgi komissiyasına üzv seçilmişdir.

Ədhəm Yusubov 1985-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinin və Rəssamlar İttifaqının birgə S.Bəhlulzadə adına sərgi qalereyasında açılmış 1- ci

Respublika “Dekorativ-tətbiqi sənət” sərgisinin təşəbbüskarı olaraq, sərginin təşkili və təbliğində iştirak etmişdir.

Ədhəm Yusubov 2006-cı ildə “Əməkdar rəssamı” adına layiq görülmüşdür

1972-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü, 1976-1987-ci ildən Azərbaycan Rəssamlar İttifaqının Dekorativ-tətbiqi sənət bölməsinin sədri və SSRİ Rəssamlar İttifaqının Dekorativ-tətbiqi sənət bölməsi üzrə komissiya üzvüdür.

1982-ci ildən M.A.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun “Rəssamlıq” fakültəsində pedaqoji fəaliyyətə başlamışdır. O, 2001-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında “Dekorativ-tətbiqi sənət” kafedrasının müdiri vəzifəsində çalışmağa başlamışdır.

2006-cı ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yaradılmasının beş illiyinə həsr olunmuş qobelen sərgisinin açılışı bir daha Azərbaycanda qobelen sənətinin inkişaf və tərəqqisinin bariz nümunəsi oldu. Sərgi tələbə və müəllimlərin son beş ildə əldə etdikləri nailiyyətlərin nümayişi və hesabatı idi.

Hal-hazırda Ədhəm Yusubovun 3 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



**Aydın Rəcəbov**

Rəcəbov Aydın Məhəmməd-Ağa oğlu 9 aprel 1944-cü ildə Bakı şəhərində anadan olmuşdur. O, 1966-cı ildə Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini bitirmiş, 1966-1972-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun “Rəssamlıq” fakültəsində təhsil almışdır.

Aydın Rəcəbov 1975-ci ildən Azərbaycan Rəssamlar İttifaqının, 1991-ci ildən Azərbaycan Rəssamlıq İttifaqının Rəyasət heyətinin üzvüdür. Onun 2005-ci ildə Bakıda və Stokholmda fərdi sərgiləri keçirilmişdir. Rəssam “Soltan Məhəmməd” mükafatına layiq görülmüşdür. Aydın Rəcəbov öz xalça və naxışlarında poeziyaya, orta əsr miniatür sənətimizin ənənələrinə və kompozisiya quruluşuna müraciət edir. Onun “Münəccimlər”, “Əncir ağacı”, “Süvari dərviş”, “Dür at”, “Günəş gəzdirən ağ dəvə”, “Qurbanlıq qoç”, “Ud çalan oğlan”, “Əkinçi qoca”, “Mücərrəd Qımıl”, “Dünya ağacı və ya badam ağacı”, “Simurq”, “Faytonçu”, “Həmsöhbət kişilər” və s. əsərlərini qeyd etmək olar.

O, Respublika və beynəlxalq sərgilərində müəllifi olduğu xalçaları ilə iştirak etmişdir. Xalçaçı rəssamın əsərləri Azərbaycan muzeylərində və Almaniya, Norveç, Rusiyadakı şəxsi kolleksiyalarda saxlanılır.

Hal-hazırda Aydın Rəcəbovun 3 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Adil Şıxəliyev

Şıxəliyev Adil Həmdulla oğlu 12 aprel 1946-cı ildə Quba şəhərində anadan olmuşdur. O, 1974-cü ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini bitirmişdir. Rəssam Rafiq Mehdiyev, Hətəm Yusifov, Svetlan İsmayılov kimi sənətkarlardan sənətin sirrlərini öyrənmişdir. Adil Şıxəliyev oxuduğu müddətdə ilk dəfə “Payız sərgisi” adlı sərgidə “İlk qar” qobelen əsəri ilə iştirak etmişdir.

Rəssamın yaradıcılığının əsas hissəsini müxtəlif texnikalarda qobelen əsərləri təşkil edir.

Onun əsərləri Azərbaycanın bir çox bölgələrinin muzey və qalereyalarında saxlanılır. Bunlardan Qubada yerləşən Bakıxanov muzeyində “Məhsul bayramı”, Sumqayıt muzeyində “Şamat aləmi” və s. kimi əsərlərini qeyd etmək olar.

Adil Şıxəliyev Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Rəssamlar ittifaqının birgə təşkil etdiyi “Xocalı” müsabiqəsində “Fəryad” adlı qobelen əsəri ilə iştirak etmiş və qalib olmuşdur. Bununla yanaşı rəssam “Kosmos sülh naminə”, “Odlar

yurdu”, “Şum”, Qobustan ritmləri”, “Şuşadan məktub”, “Həyat”, “Türkün pəncərəsi” əsərlərinin müəllifidir.

Adil Şıxəliyev 1981-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. O, beynəlxalq dekorativ tətbiqi sənət simpoziumlarının, beynəlxalq qrup sərgilərinin iştirakçısıdır.

Rəssamın əsərləri Moskva, Gürcüstan, Almaniya, Çexoslavakiya, Türkiyə və Azərbaycanda nümayiş etdirilmişdir. O, respublika və beynəlxalq sərgilərin fəal iştirakçısıdır.

Hal-hazırda Adil Şıxəliyevin 4 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.



## Şamo Abbasov

Abbasov Şamo Bəkir oğlu 1 avqust 1955-ci ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. O, 1970-1974-cü illərdə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində, 1978-1984-cü illərdə isə V.Muxina adına Ali Sənayə Rəssamlıq Məktəbində təhsil almışdır. Rəssamın diplom işi "Sirk" adlı keramik etüdlər olmuşdur. O, tələbə vaxtları "Nülufərin portreti" ilə "Çiskinli Bakı" bahar sərgisində iştirak etmişdir.

Şamo Abbasov yaradıcılığı milli koloriti, abşeron insanlarının obrazları və komik halları ilə seçilir. Rəssam 1986-cı ildən Azərbaycan və SSRİ Rəssamlar İttifaqının üzvü olmuşdur.

Şamo Abbasov "Yoldaşın portreti", "Avtoportret", "Çayxana" keramik əsərlərinin müəllifidir. Bakıda təşkil olunmuş müxtəlif sərgilərdə "Şahzadə", "Səttar Bəhlulzadənin xatirəsində" keramik löhvələrlə çıxış etmişdir. Keramikanın sirlərini öryənib onun texnoloji metodlarını mənimsəyir. Üçüncü və dördüncü kurslarda Leninqradın mərkəzi manejində təşkil olunan sərgilərdə o, bir-birinin ardınca bir neçə ("Elşadın portreti", "Avtoportret", " Çayxana", "Səttar Bəhlulzadənin portreti") keramik əsərləri nümayiş

etdirir. Milli ruhlu, zəngin rəssam təxəyyülünün məhsulu olan bu işlər tamaşaçılara estetik zövq bəxş etməklə onları sevindirirdi.

Onun bir rəssam kimi ustalığı işlərindəki uyar formada kompozisiya bütövlüyündə hər bir fiqurun ayrı-ayrılıqda iç məna tutumunda fəlsəfi fikir yükünün zənginliyində özünü daha çox göstərir. Rəngkarlıq əsərlərindən “Gül əməliyyatı”, “Pivə bokalı arxasında”, “Xüsusi təyinat briqadası”, “Xalq təbabəti”, “Dünyəvi layihə”, “Maneken ustası”, “Xoruz oğrusu”, “Bağçada görüş”, “Yeni həyat” (2009) adlarını qeyd etmək olar.

Rəssamın 2000-ci ildə “Mercy Corps İnternational”da fərdi sərgisi keçirilmişdir.

Şamo Abbasovun əsərləri Azərbaycan Dövlət İncəsənət muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, Russiya Mədəniyyət Nazirliyində, Ştiqlitz adına Tədbiqi sənət muzeyində, Beynəlxalq keramika muzeyində (Çexiya), ABŞ-da Azərbaycan səfirliyində və şəxsi kolleksiyalarda saxlanılır.

Şamo Abbasov 7 may 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Hal-hazırda Şamo Abbasovun 4 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.